# Ramazan Bayramınız Mübarək!


www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

N22 (1070) 4-12 iyun 2019-cu il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet     Qiyməti razılaşma yolu ilə     Qəzet 1999-cu ildən çıxır


## Rusiyada hava limanına məşhur neftçimizin adı veriləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib. Prezident İlham Əliyev Rusiya Federasiyasının Surqut şəhərinin hava limanına görkəmli neftçi Fərman Salmanovun adının verilməsi ilə bağlı təşəkkürünü bildirdi və bu qərarın Azərbaycan ictimaiyyəti tərəfindən böyük minnətdarlıqla qəbul edildiyini vurğuladı. Telefon söhbəti zamanı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, əldə edilmiş nailiyyətlərdən məmnunluq ifadə olundu.



Azərbaycan və Rusiya prezidentləri əlaqələrimizin inkişafına dair müxtəlif məsələlər və əməkdaşlığımızın perspektivləri, eləcə də gələcək təmaslar haqqında fikir mübadiləsi apardılar.

## Prezident İlham Əliyev Dünya Bankının nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon Azərbaycanda fəaliyyət müddətinin başa çatdığını qeyd edərək, ötən dövr ərzində ölkəmizlə təmsil etdiyi qurumun səmərəli əməkdaşlıq həyata keçirdiyini vurğuladı. Bu müddətdə ölkəmizin Dünya Bankı ilə əlaqələrinin çox uğurlu olduğunu deyən Mersi Tembon "Doing Business" hesabatında Azərbaycanın əhəmiyyətli dərəcədə irəli getməsini önəmli hadisə kimi dəyərləndirdi. Son illərdə Azərbaycanın sürətlə inkişaf etdiyini bildirən qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıqda böyük uğurlara nail olunduğunu xüsusi vurğuladı. Ölkəmizlə əməkdaşlığın perspektivlərinə toxunan Mersi Tembon qarşıdakı illər üçün növbəti sosial-iqtisadi inkişaf proqramının hazırlanmasında Dünya Bankının Azərbaycana məsləhətçi kimi dəstək verməyə hazır olduğunu dedi. Qonaq qeyd etdi ki, artıq Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafı, özünüməşğulluq sahələrində Dünya Bankı ekspertləri ilə ölkəmizin müvafiq strukturları arasında layihələrin hazırlanmasına başlanılıb. O, icbari tibbi sığorta və ədliyyə sahələrində də işlərin getdiyini bildirdi.

Sonra Mersi Tembon Dünya Bankının Cənubi Qafqaz üzrə yeni regional direktoru Sebastian Molenösü təqdim edərək əminliyini bildirdi ki, gələcək illərdə də Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıq uğurla davam etdiriləcək.

# Polşa-Azərbaycan əlaqələrinin daha da genişləndirilməsi üçün yaxşı imkanlar var




**Mayın 31-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Polşa biznes forumu keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda biznes forumda iştirak ediblər.

**Prezident İlham Əliyev demişdir:**

- Bu gün biznes forum çərçivəsində Polşa-Azərbaycan biznes dairələrinin nümayəndələri bir araya gəliblər və bu da təbiidir. Çünki bizim yüksək səviyyədə siyasi əlaqələr imkan verir ki, biznes dairələri də bir-biri ilə sıx təmasda olsunlar.

Biz çox maraqlıyıq ki, ticarət dövriyyəsi artsın. İxrac-idxal əməliyyatlarının artırılması üçün konkret addımlar atılır. Keçən il Polşada Azərbaycanın Ticarət Evi açılmışdır. Hesab edirəm ki, bu, önəmli addımdır və Azərbaycanda istehsal olunan məhsullar bu Ticarət Evi vasitəsilə təqdim ediləcək. Biz sərmayə qoyuluşu ilə bağlı fikir mübadiləsi apardıq. Hesab edirəm ki, burada da imkanlar var, biz öz səylərimizi düzgün istiqamətə yönəltməliyik ki, sərmayə qoyuluşu sahəsində səmərə əldə olunsun.

Azərbaycanda ümumiyyətlə biznes mühiti müsbətdir və son illər ərzində bu istiqamətdə böyük irəliləyiş var. Dünya Bankının "Doing Business 2019" hesabatında biznes mühitinin səviyyəsinə görə Azərbaycan 25-ci yerdədir və 10 ən islahatçı ölkə arasındadır. Ona görə sərmayə qoyuluşu məsələləri ilə bağlı çox böyük işlər görülür. Həm neft-qaz sektoruna, həm qeyri-neft sektoruna on milyardlarla dollar sərmayə qoyulmuşdur.

Azərbaycanda son illər ərzində aparılan iqtisadi islahatlar imkan verir ki, biz öz maliyyə imkanlarımızı genişləndirək. Xarici dövlət borcu aşağı səviyyədədir. Hazırda bu, ümumi daxili məhsulun 19 faizini təşkil edir. Biz beynəlxalq maliyyə qurumları ilə fəal əməkdaşlıq edirik. Onlar Azərbaycanda gedən islahatlara müsbət qiymət verirlər. Ölkəmizdə həyata keçirilən infrastruktur layihələri biznes şəraitini yaxşılaşdırır. Çünki yollar, kommunikasiyalar olan yerlərdə biznes dairələri də özlərini daha rahat hiss edirlər. Son illərdə Azərbaycanda infrastruktur layihələrinin icrasına çox böyük diqqət yetirilmişdir. Yol tikintisi, qazlaşdırma, elektrik enerjisi ilə bağlı aparılan bütün bu işlər biznes üçün gözəl şərait yaradır.

Azərbaycanda nəqliyyat sektorunun inkişafı son illərdə prioritet məsələ kimi qalır. Azərbaycanda yaradılmış müasir nəqliyyat infrastrukturu həm ölkə daxilində, həm də regional çərçivədə əhəmiyyətlidir. Son illər ərzində Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində atılmış addımlar artıq öz səmərəsini verir.

Beləliklə, yüksək səviyyəli siyasi əlaqələr imkan verir ki, biznes sahəsində də yaxşı nəticələr olsun.

**Polşa Prezidenti Andjey Duda demişdir:**

- Azərbaycan bu gün geniş imkanlara malik olan ölkədir və bilirik ki, böyük layihələr həyata keçirməkdədir. Azərbaycan, həmçinin Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulmuşdur. Bunun sayəsində Çinə və Hindistana ticarət marşrutları daha da qısalacaqdır. Bu baxımdan istərdik ki, Polşa şirkətləri Azərbaycanda daha geniş şəkildə fəaliyyət göstərsinlər. İstərdik ki, Polşada da Azərbaycan şirkətləri daha geniş şəkildə çalışsınlar və məhsulların ixrac-idxalı ilə məşğul olsunlar.




# Bu gün Azərbaycan müstəqillik yolunda inamla irəliləyir



Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Respublika Günü münasibətilə Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxt Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni ziyarət edib.

* * * *

Həmin gün "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

**Dövlət başçısı rəsmi qəbulda nitq söyləmişdir. O, demişdir:**

-Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur. Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilmişdir. Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur. Onların xatirəsi bizim qəlbimizdə yaşayır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakı şəhərinin mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Keçən il isə ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdir.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində digər müttəfiq respublikalarla birlikdə Azərbaycan da müstəqilliyə qovuşdu və əlbəttə ki, bizim üçün XX əsrdə ikinci şans yarandı. Xalqımız nicat yolunu Heydər Əliyevin simasında gördü, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi.

1993-cü il müasir tariximizdə dönüş nöqtəsi idi. Məhz 1993-cü ildən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, Azərbaycanda sabitlik təmin edildi və ölkə inamla irəliyə getməyə başladı. Ulu öndər Heydər Əliyevin xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır. Nizami ordu yaradılmışdır, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdır, dövlətçiliyin əsasları qoyulmuşdur, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdir. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi. Bu gün Azərbaycan bu strateji inkişaf istiqamətlərini əsas tutaraq bölgədə, dünyada dəyişən vəziyyətə uyğun olaraq öz inamlı siyasətini aparır.

Ölkəmizin hərbi qüdrəti güclənir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi, Naxçıvan Muxtar Respublikasında keçirilən əməliyyat nəticəsində böyük torpaq sahəsi işğalçılardan azad edilmişdir. Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır.

Biz son 16 ildə iqtisadi inkişafa nail olduq və bir çox iqtisadi məsələlər öz həllini tapdı. Ölkəmizə böyük həcmdə sərmayə gətirildi. Qoyulan 260 milyard dollardan çox vəsait bu gün ölkəmizin, xalqımızın inkişafına xidmət göstərir. Həm neft, həm qeyri-neft sektoruna qoyulan vəsait ölkəmizin iqtisadi potensialını böyük dərəcədə gücləndirə bilmişdir.

Sosial sahə ilə bağlı çox ciddi addımlar atılır və insanların rifah halı böyük dərəcədə yaxşılaşıb. Məcburi köçkünlərin problemləri öz həllini tapır.

Bir sözlə, son illər ərzində bütün istiqamətlər üzrə inkişaf, tərəqqi var. Sosial infrastrukturun inkişafı ilə bağlı çox böyük işlər görülmüşdür, məktəblər, xəstəxanalar tikilmişdir. Bütün bunlar Azərbaycan reallıqlarıdır. Biz artıq güclü iqtisadi potensial, güclü iqtisadi baza yaratmışıq. Əgər bizim təşəbbüsümüzlə uğurla reallaşan nəqliyyat və enerji layihələrini əlavə etsək, görərik ki, doğrudan da Azərbaycan böyük yol keçmişdir.



Bu gün biz beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilmək üçün çox fəal iş aparırıq. Bu istiqamətdə də böyük addımlar atılır, böyük sərmayə qoyulur. Dəmir yolu infrastrukturu, avtomobil yollarının tikintisi, 6 beynəlxalq aeroportun fəaliyyətə başlaması, dəniz nəqliyyatının müasirləşdirilməsi – bütün bunlar son illər ərzində görülmüş işlərdir.

Bundan sonra dayanıqlı inkişafı təmin etmək üçün biz fəal işləməliyik və qəbul olunmuş qərarlar icra edilməlidir.

Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Belə olan halda hərbi potensialımızın gücləndirilməsi əsas prioritet məsələlərdən biri olmalıdır.

Bu məsələ ilə bağlı biz bundan sonra da ardıcıl siyasət aparacağıq. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Biz bu mövqedən dönməyəcəyik. Münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və müvafiq beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilməlidir.

İşsizliklə bağlı problemlərin həlli daim gündəlikdə duran məsələdir. Çünki 2003-cü ildən bu günə qədər 2 milyon iş yeri yaradılmasına baxmayaraq, yenə də işsizlik var. Bu ilin əvvəlindən təkcə dövlət sektorunda 50 minə yaxın iş yeri yaradılmışdır. Ancaq, əlbəttə, biz yaxşı başa düşürük ki, ilk növbədə özəl sektorda iş yerləri yaradılmalıdır, özəl sektorda da yaradılır. Biz dövlət olaraq özəl sektora dəstək göstərərək onları da bu işə sövq edirik.

İşsizlik hər bir ölkə üçün xas olan problemdir. Biz onu da bilməliyik ki, son 15 il ərzində Azərbaycan əhalisi 1,7 milyon artmışdır. İşsizliklə bağlı tədbirlər müntəzəm olaraq aparılmalıdır. Bu, gündəlikdə daimi duran məsələdir və biz məsələ ilə bağlı ciddi məşğuluq.

Bu gün dünyada informasiya müharibəsi aparılır və hər bir vətəndaş bunu açıq-aydın görə bilir. Azərbaycan uzun illərdir ki, informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Biz öz siyasətimizlə Azərbaycana qarşı yönəldilən bütün yalanları, bütün böhranları darmadağın edirik və etməliyik. Çünki bu gün Azərbaycan reallıqları onu göstərir ki, ölkə inamla, sürətlə inkişaf edir. Azərbaycan xalqı hər şeyi yaxşı bilir və bilməlidir ki, biz informasiya müharibəsi şəraitində yaşayırıq və buna hazır olmalıyıq. Biz bu müharibədə ancaq öz işimizlə, öz qətiyyətimizlə qalib gələ bilərik.

Bizim qarşımızda bir çox vəzifələr dayanır. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan öz müstəqil siyasətini aparmalıdır. Xalqımız ancaq müstəqillik şəraitində inkişaf edə bilər. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!

# İ.Əliyev: Neft-qaz sektoru bizim üçün prioritet sektor olaraq qalacaqdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak edib.

**Dövlətimizin başçısı açılış mərasimində nitq söyləmişdir. O, demişdir:**

**- Bu sərgi 26-cı dəfədir keçirilir və sərgiyə maraq azalmır. Çünki bu il sərgidə 30-dan çox ölkədən 300-ə yaxın şirkət iştirak edir və bu, çox gözəl göstəricidir. İyirmi altı il ərzində sərgi dünyanın neft şirkətlərinin diqqətini cəlb edir. Bu, onu göstərir ki, Azərbaycanın neft-qaz resursları bu gün və gələcəkdə xarici şirkətlər üçün böyük maraq kəsb edəcək.**

Mən birinci sərgini xüsusilə qeyd etmək istərdim. 1994-cü ildə keçirilmiş birinci sərgi Azərbaycanı dünyaya təqdim etdi, Azərbaycanın zəngin neft-qaz resursları haqqında dünyaya məlumat verdi. Çünki o vaxt Azərbaycan haqqında məlumat çox məhdud idi, bizim ölkəmiz gənc müstəqil dövlət idi, müstəqilliyinin ilk illərini yaşayırdı. Əlbəttə, dünyada, xüsusilə neft-qaz aləmində Azərbaycanın potensialı haqqında məlumat demək olar ki, yox idi. Sərginin keçirilməsi, Azərbaycana diqqətin cəlb edilməsi gələcəkdə Azərbaycanın neft-qaz sektorunun inkişafı üçün çox önəmli rol oynadı.

1994-cü ildə ilk sərgi keçiriləndə ölkəmizdə vəziyyət tam fərqli idi. Azərbaycan çox ağır iqtisadi vəziyyətdə idi, siyasi müstəvidə sabitlik təzə-təzə bərpa edilmişdi. Çünki müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir.

Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki məhz o, Azərbaycan rəhbərliyinə gələndən sonra ölkəmizdə vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu və xarici investorlar bizə inandı. 1994-cü ilin sentyabr ayında "Azəri-Çıraq-Günəşli" neft yataqları üzrə imzalanmış kontrakt demək olar ki, bizim inkişafımıza çox böyük təkan verdi. Təsadüfi deyil ki, bu kontraktın miqyasına və əhəmiyyətinə görə ona "Əsrin kontraktı" adı verilmişdir. "Əsrin kontraktı"nın imzalanmasından sonra Azərbaycana böyük həcmdə sərmayə qoyuluşu başlamışdır və eyni zamanda, ondan sonra digər kontraktlar da imzalandı. "Əsrin kontraktı"nın çox böyük əhəmiyyəti var. Bu gün də bu əhəmiyyət kifayət qədər böyükdür. İki il bundan əvvəl kontraktın müddəti uzadıldı, 2050-ci ilə qədər bu kontrakt qüvvədə olacaq. Yəni, bu, o deməkdir ki, Azərbaycanın neft-qaz resursları, eləcə də "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılacaq neft-qaz bundan sonra da uzun illər ərzində Azərbaycan xalqına, dövlətinə xidmət göstərəcək.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları üzrə imzalanmış kontraktlar tarixi əhəmiyyət daşıyır. Əlbəttə ki, növbəti mərhələdə neft-qaz kəmərlərinin tikintisi məsələsi gündəliyə çıxmışdır və bu məsələ də uğurla həll olundu. Hesab edirəm ki, bu da tarixi layihədir.

**Cənub Qaz Dəhlizinin reallaşması tarixi hadisədir. Bu, nəhəng infrastruktur layihəsi həm ölkəmiz, həm də digər ölkələr üçün böyük əhəmiyyət daşıyır. Cənub Qaz Dəhlizinin reallaşması üçün bir çox önəmli addımlar atılmışdır və əlbəttə ki, burada beynəlxalq əməkdaşlıq xüsusi yer tutur. 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında imzalanmış TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Keçən il - düz bir il bundan əvvəl mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Beləliklə, bu böyük layihənin icrası istiqamətində çox önəmli addımlar atılmışdır.**

Azərbaycan bir çox xarici enerji şirkətləri ilə uğurlu əməkdaşlıq aparır və bu əməkdaşlığın böyük tarixçəsi var. Hər bir şirkətlə əməkdaşlıq aparmaq bizim üçün çox önəmlidir, ancaq mən xüsusilə BP şirkətini qeyd etmək istərdim. Çünki BP şirkəti bizim strateji tərəfdaşımızdır, strateji investordur. Biz 25 ildir ki, əməkdaşlıq edirik. Bu əməkdaşlıq həm ölkəmiz, həm də şirkət üçün çox uğurludur. Hesab edirəm ki, bu əməkdaşlıq nümunəvi xarakter daşıyır və bu əməkdaşlığın gözəl gələcəyi var. Çünki qeyd etdiyim kimi, təkcə "Azəri-Çıraq-Günəşli" yatağı üzrə işlər ən azı 2050-ci ilə qədər aparılacaqdır. "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsi də bundan sonra onilliklər ərzində aparılacaqdır. Beləliklə, bizim strateji tərəfdaşlığımızın çox gözəl perspektivləri vardır.




Biz bu layihələri əlbəttə ki, o cümlədən xarici maliyyə resurslarının hesabına icra etdik. Həm öz vəsaitimizi qoyduq, eyni zamanda, beynəlxalq maliyyə qurumlarından kredit şəklində vəsait aldıq. Bu münasibətlə bu qurumların Azərbaycana dəstəyi haqqında danışmaq istərdim. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı – dünyanın bu aparıcı maliyyə qurumları Cənub Qaz Dəhlizinin reallaşmasına öz maliyyə vəsaitini ayırıb və beləliklə, layihənin icrası üçün çox önəmli dəstək vermiş olublar. Eyni zamanda, bu kreditlərin ayrılması Azərbaycanın uğurlu gələcəyinə inamın təzahürüdür.

Biz bu layihənin həyata keçirilməsi üçün Avropa İttifaqı ilə əməkdaşlıq aparırıq. 2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi ilə əlaqədar Birgə Bəyannamə qəbul edilmişdir. Bizim təşəbbüsümüzlə hər il Bakıda Cənub Qaz Dəhlizinin Məşvərət Şurası keçirilir. Bu ilin fevral ayında 5-ci toplantı keçirilmişdir. Bu toplantılarda həm görülmüş işlərə yekun vurulur, eyni zamanda, ən önəmlisi odur ki, görüləcək işlər haqqında danışılır. Əlbəttə, biz əminik ki, bu nəhəng layihənin uğurla icra edilməsinə nail olacağıq.

Sirr deyil ki, bu gün enerji təhlükəsizliyi məsələləri böyük əhəmiyyət daşıyır. Enerji təhlükəsizliyi məsələləri ölkələrin milli təhlükəsizliyi məsələləridir. Bu baxımdan Azərbaycan tərəfindən reallaşan və bizim təşəbbüsümüzlə həyata keçirilən layihələr həm ölkəmizin, həm də bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir.

Dövlət Neft Fondunun yaradılması və Dövlət Neft Fondunun xətti ilə ən vacib məsələlərin həlli – bu da uğurlu neft siyasətimizin nəticəsində olmuşdur. Yüzdən çox köçkün şəhərciyi Dövlət Neft Fondunun xətti ilə inşa edilmişdir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastruktur layihələrinə investisiya qoyuluşu da məhz bu layihələrlə bağlıdır. Biz son illər ərzində əsas infrastruktur layihələrimizi icra etdik və bu istiqamətdə işlər davam etdirilir.

Əlbəttə, bundan sonra da çalışmalıyıq ki, büdcəmizi daha çox qeyri-neft sektorunun hesabına təmin edək və buna yaxınlaşırıq. Ancaq onu da bilməliyik ki, neft-qaz sektoru bizim üçün prioritet sektor olaraq qalacaqdır.

* * * * *

Sonra ABŞ Dövlət Departamentinin enerji ehtiyatları bürosunda dövlət katibi köməkçisinin birinci müavini Kent LOQSDON çıxış etmişdir.

Daha sonra Böyük Britaniyanın beynəlxalq ticarət üzrə dövlət katibi Liam FOKSUN videomüraciəti təqdim olunmuşdur.

Sonra Prezident İlham Əliyev sərgi ilə tanış olmuşdur.

# Bizim əsas vəzifəmiz Azərbaycanda sabitliyi qorumaq, xalqın rifah halını yaxşılaşdırmaqdan ibarətdir

Mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür PAŞAZADƏ mərasim iştirakçılarını salamlayaraq demişdir:**

*- Bismillahir-rəhmanir-rəhim.*

Möhtərəm cənab Prezident İlham Əliyev, Dəyərli qonaqlar.

Allah-Təalanın mübarək Ramazan ayının iftar süfrəsində Sizləri salamlayır, qonaqlarımıza, xüsusən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına məclisimizdə iştirak etdiyinə görə Azərbaycan dindarları adından və şəxsən öz adımdan salam-dualarımı və dərin minnətdarlığımı bildirirəm. Burada iştirak edən dəyərli din və dövlət xadimlərinə, dini konfessiya rəhbərlərinə, deputatlara, xarici ölkələrin nümayəndələrinə təşəkkür edirəm.

***Qurani-Kərimin nazil olduğu, duaların qəbul edildiyi mübarək Ramazan ayında iftar mərasimində Sizinlə görüşmək böyük dəyər kəsb edən əlamətdar ənənəyə çevrilib. Bu qardaşlıq məclisini bizlərə böyük insan, dahi dövlət xadimi, mənim unudulmaz, əziz qardaşım ulu öndər Heydər Əliyev əmanət edib.***

Hər il biz Heydər Əliyev şəxsiyyətinin dəyər və miqyasını, ucalıq və müdriklik zirvəsini bir daha kəşf edir, əziz xatirəsini böyük ehtiramla yad edirik. Ulu Öndər bizə müstəqil dövlət, möhkəm din-dövlət münasibətləri, nadir multikultural mədəniyyət nümunəsini əmanət edib.

Zati-aliləri, Azərbaycan torpağına qədəm basan hər kəsin şahidi olduğu tərəqqi və uğurların təməlində Sizin – dövlətimizin başçısının fəaliyyəti və müdrik siyasəti durur. Sizin həyata keçirdiyiniz siyasətin yaşam gücü dövlət – xalq birliyində, Prezident - vətəndaş həmrəyliyindədir. Bu, həm siyasi, həm mənəvi baxımdan ən düzgün yoldur.

Azərbaycan tarixən dinlərarası tolerantlıq və multikulturalizm mühitinin təşəkkül tapmasına böyük önəm verib. Mədəniyyətlərarası əməkdaşlığa dair onillik tarixə malik “Bakı Prosesi”nin müəllifi məhz dövlətimizin başçısı möhtərəm İlham Əliyevdir. Azərbaycanın Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyevanın ölkəmizdə və beynəlxalq aləmdə genişmiqyaslı fəaliyyəti, milli-mənəvi irsimizi yüksək səviyyədə təbliğ etməsi, ümumbəşəri dəyərlərə diqqəti və himayəsi Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsinə xidmət edir, dünyaya təqdim olunan Azərbaycan modeli sivilizasiyalararası dialoq, dinlər və mədəniyyətlərarası əməkdaşlığın inkişafına öz töhfəsini verir.

Zati-alinizin xeyir-duası və təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin məramı nadir multikulturalizm modelinin yaradılmasına və inkişafına dair qlobal ideyalarınızı təbliğ etməkdir. Məhz bu məramla, İnşallah, bu ilin iyununda Mərkəzimiz tərəfindən BMT-nin Cenevrə İnsan Haqları və Qlobal Dialoq Mərkəzinin, habelə Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAİCİİD) həmtəşkilatçılığı, Azərbaycanın Avstriyadakı səfirliyinin, Avstriya dövlətinin ali dəstəyi və iştirakı ilə Vyanada 10-dan artıq beynəlxalq təşkilatın, 40-a yaxın ölkənin 300-ə yaxın din və dövlət nümayəndəsinin, elm və ictimaiyyət xadiminin iştirak edəcəyi beynəlxalq konfrans keçiriləcəkdir.

Dünyanın bir çox ölkələrində mənəvi dəyərlərə qarşı savaş açıldığı, islamofobiya, antisemitizm zəminində təqiblərin, terrorun, ekstremizm və radikallığın artdığı mürəkkəb zamanda müxtəlif qitə nümayəndələrinin, din və mədəniyyət təmsilçilərinin Azərbaycan Prezidentinin elan etdiyi multikulturalizm, İslam həmrəyliyi kimi qlobal əhəmiyyətli ideyalar ətrafında bir araya gəlməsi dövlətimizin uğuru və Sizin siyasətinizin təntənəsidir. Bu gün Azərbaycan iqtisadi, siyasi, mədəni sahələrdə liderliyi ilə yanaşı, dünya çapında dini-mənəvi dəyərlərin inkişafına böyük töhfələr verən multikulturalizm mərkəzi kimi tanınmaqdadır. Biz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi ilə əməkdaşlıq çərçivəsində Zati-alinizin irəli sürdüyü istiqamətlər yönündə yeni əməli layihələr üzərində işləyirik.

Fərəhləndirici haldır ki, ölkəmiz 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş birinci Sammitinin davamı olaraq sivilizasiyalararası dialoqun inkişafına daha bir töhfə verməyə hazırlaşır.

Zati-aliləri, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınız, milli-mədəni irsin dirçəlişinə göstərdiyiniz maddi və mənəvi yardım Ulu Öndərin Bibiheybətdən başlatdığı ali mənəviyyat yoluna sadiqliyinizi hər zaman əməli səylərinizlə nümayiş etdirirsiniz.

Ali himayənizi heç vaxt əsirgəmədiyiniz, xalqımız üçün müqəddəs məkan sayılan Təzəpir məscidinin ətrafında aparılan abadlaşdırma işləri, genişləndirilən ərazidə salınan möhtəşəm park, məscidin ilkin tarixi layihəsinə uyğun yenidən qurulması barədə iradəniz - bütün bunlar milli-mənəvi dəyərlərimizə, tariximizə olan yüksək qayğının təzahürü, xalqımıza böyük hədiyyədir. Zati-alinizin mənəvi irsimizə sahib çıxaraq XX əsrdə Vladiqafqazda azərbaycanlı xeyriyyəçi Muxtarov tərəfindən inşa edilmiş məscidi tam bərpa etdirməniz isə bütün Qafqaz bölgəsi müsəlmanlarına, orada yaşayan soydaşlarımıza böyük hədiyyədir.

Möhtərəm cənab Prezident, Zati-alinizə xas olan yüksək mənəvi xüsusiyyətlərdən biri də odur ki, Siz təkcə İslamın deyil, bütün dinlərin dini-mədəni irs nümunələrinə sahib çıxaraq, ölkəmizdəki, həmçinin ölkə xaricindəki istər xristian, istər yəhudi məbədlərinə eyni dərəcədə diqqət və himayə göstərirsiniz.

Peyğəmbərimiz Məhəmməd Salavatullahın hədisində buyurulur ki, insanların ən xeyirlisi xalq üçün daha faydalı olanıdır. Zati-aliləri, Azərbaycanın iqtisadi qüdrətinin artırılması yönündə səyləriniz, beynəlxalq əhəmiyyətli enerji və



nəqliyyat layihələrində fəal iştirakınız, sosial layihələrə verdiyiniz dəstək xalqımızın rifahına, dövlətimizin mənafelərinə xidmət edir. Siz və Mehriban xanım bütün vətəndaşlara həyatın ən çətin məqamlarında - təbii fəlakətlərdə, yanğınlarda, baş verən faciələrdə yüksək insani dəyər verir, onların problemlərinə diqqətlə yanaşırsınız. Dünyanın inkişaf etmiş dövlətlərinin miqrant böhranını aradan qaldıra bilmədiyi bir dövrdə Siz, möhtərəm cənab Prezident, Azərbaycanın qaçqın və məcburi köçkünləri üçün böyük qayıdış planları həyata keçirirsiniz. Cocuq Mərcanlıda Zati-alinizin inşa etdirdiyi məscidin, aparılan quruculuq işlərinin mənəvi önəmi xalqımız üçün sözlə ifadə olunmayacaq qədər böyükdür.

Bu yaxınlarda 10 milyonuncu vətəndaşımızın dünyaya gəlməsi gündən-günə geriləyən, maddi və mənəvi iflasa uğrayan, demoqrafik böhran yaşayan Ermənistan üçün ağır zərbədir.

Zati-aliləri, 70 illik yubileyim və Şeyxülislamlıq fəaliyyətimin 40 illiyi münasibətilə verdiyiniz ali qərar və sərəncamınızla cənabınıza xas olan böyüklük nümayiş etdirərək, şəxsimə, Azərbaycan xalqı, dövlətçiliyimiz, müqəddəs dinimiz yolunda xidmətlərimə böyük dəyər verdiniz. Şeyxülislam olaraq 40 il ərzində dini mərkəzimizi ulu öndər Heydər Əliyevin xeyir-duası ilə onun əmanəti kimi saxlamağa, cənab Prezident, Sizin dəstəyinizlə dünyanın tanınmış dini təşkilatı səviyyəsinə qaldırmağa nail olmuşuq. Hər zaman, hər yerdə qürurla deyirəm ki, harada dövlət və din birliyi varsa, orada dövlətin və xalqın siyasi, iqtisadi və mənəvi rifahı üçün təminat vardır, Heydər Əliyev yolunun davamı və Uca Yaradanımızın xeyir-duası vardır.

Möhtərəm cənab Prezident, bizim yeganə problemimiz, ağrılı yerimiz Dağlıq Qarabağ münaqişəsidir ki, onun da tezliklə Allahın köməyi və Ali Baş Komandanımızın əzmi, qətiyyəti sayəsində həllini tapacağına, torpaqlarımızın azad olunacağına əminik.

Müqəddəs Ramazan ayında etdiyimiz dualar qəbul olar, İnşallah. Bu niyyətlə hamıya - dəvət olunan mötəbər qonaqlara, dini konfessiyaların möhtərəm başçılarına, diplomatik nümayəndələrə bir daha “Xoş gəlmisiniz!” deyir, Allahdan hər birinizə xeyir-dualar diləyirəm.

* * * * *

**Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu ALEKSANDR çıxış edərək demişdir:**

-Dini və milli ənənələrimizi yeniləmək və möhkəmləndirmək üçün Ramazan ayı günlərində bir yerə toplaşmaq əlamətdar ənənəyə çevrilib. Bu görüş Azərbaycanda yaşayan xalqların öz tarixi və dini köklərinə bağlılığının parlaq təsdiqi, milli mentalitetin, dövlətlə din arasında konstruktiv qarşılıqlı münasibətlərin əyani təzahürüdür. Bu iftar süfrəsi də ölkədə sabitliyin, xalq-iqtidar birliyinin, dinlərarası dialoqun yüksək səviyyəsinin və multikulturalizmin Azərbaycan modelinin uğurunun parlaq təsdiqi, cəmiyyətin inkişafının ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kursunun dəyişməzliyinin sübutudur.

**Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih YEVDAYEV demişdir:**

-Bu müqəddəs Ramazan günlərində ənənəvi iftar süfrəsi arxasında hamınızı yəhudi xalqı adından salamlayıram. Qoy Allah-Təala hamınızı öz qanadı altına alaraq şər qüvvələrdən hifz etsin. Allah-Təala tutduğunuz orucların və etdiyiniz duaların əvəzində sizə cansağlığı, xoşbəxtlik, səadət, bol ruzi-bərəkət bəxş etsin.

Bu gün Azərbaycanın sürətli inkişafını, uğurlu xarici və daxili siyasətini, o cümlədən dövlət və din münasibətlərinin səmərəli tənzimlənməsini şərtləndirən başlıca iki amil mövcuddur. Birincisi, Ulu Öndərin əsasını qoyduğu sağlam bünövrə, ikincisi isə Ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin həmin sağlam bünövrə üzərində həyata keçirdiyi uğurlu strategiyadır.

**Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir FEKETE çıxış edərək demişdir:**

-Hörmətli Şeyxülislam, mən Azərbaycan katolikləri adından sizə xüsusilə bu il - sizin əlamətdar 70 illik yubileyiniz münasibətilə ən xoş arzularımı çatdırmaq istəyirəm. Ulu Tanrı sizi, ailənizi qorusun və sizə kömək etsin ki, həyatınız, zəhmətiniz gələcəkdə də dini dözümlülük ideyalarının möhkəmlənməsinə və bu gözəl ölkənin bütün sakinlərinin əməkdaşlığına kömək etsin.

Hörmətli cənab Prezident, mən Azərbaycan katolikləri adından bu dövlətin başçısı kimi Sizə təşəkkürümü bildirmək istəyirəm. Siz bütün bəşəriyyətə çox böyük töhfə verən tolerantlıq və multikulturalizm proseslərinin qarantısınız.

Mən azərbaycanlıların qonaqpərvərliyinə və səmimiliyinə, eləcə də onların tarixi səhvlərə və ədalətsizliyə qarşı qəhrəmancasına dözümlü və səbirli olmasına heyranam. Mən əminəm ki, bunların hamısı bütün bəşəriyyət üçün dəyərli töhfə olacaq.

* * * * *

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə nitq söyləmişdir. O, demişdir:**

- Hər il olduğu kimi, mübarək Ramazan ayında Şeyx həzrətlərinin iftar süfrəsində görüşürük. Bu, gözəl ənənədir. Bu, dövlət-din münasibətlərinin bariz nümunəsidir. Dövlət-din münasibətləri hər bir ölkə üçün xüsusi əhəmiyyətə malikdir və Azərbaycanda bu münasibətlər nümunəvi xarakter daşıyır. Bu münasibətlərin təməlində ulu öndər Heydər Əliyev və Şeyx həzrətləri dayanırlar. Onların şəxsi dostluğu, bir-birilərinə olan hörməti dövlət-din münasibətlərinin inkişafına çox böyük təsir göstərmişdir. Mən onun şahidiyəm ki, Şeyx həzrətləri və ulu öndər Heydər Əliyev bir-birinə çox yaxın insanlar olmuşlar və onların xalq, Vətən qarşısında gördükləri işlər bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaratmışdır.

1993-cü ilə qədər dövlət-din münasibətlərində müəyyən boşluqlar var idi. 1993-cü ildən sonra bu sahədə də bütün istiqamətlər üzrə işlər ən yüksək səviyyədə tənzimlənir. Mayın 10-da, Ulu Öndərin anadan olmasının 96-cı ildönümü günündə onun xalq, dövlət qarşısında gördüyü işlər haqqında danışdıq. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri var. Bugünkü müstəqil Azərbaycan onun əsəridir. Dövlətçiliyin əsaslarının qurulması, Azərbaycanın strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi məhz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur.

Hörmətli Şeyx həzrətləri xalq və dövlət qarşısında böyük xidmətlər göstərir. Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuza malik görkəmli din xadimidir və Azərbaycanı dünyada öz dəyərlərinə sadiq, eyni zamanda, müasir, tolerant ölkə kimi təqdim edir.

Ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi var. Konstitusiyaya görə din dövlətdən ayrı olsa da, əslində din və dövlət bir-birinin yanındadır. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanın uğurlu inkişafı dövlət-din münasibətlərinin uğurlu inkişafından böyük dərəcədə asılıdır.

Dünyada vəziyyət gərginləşir. Həm bölgəmizdə, həm dünyada yeni toqquşmalar, yeni münaqişə ocaqları yaranır, yeni risklər, təhdidlər meydana çıxır. Dünyanın gələcəyi ilə bağlı, sabitliyin gələcəyi ilə bağlı müxtəlif fikirlər, fərziyyələr irəli sürülür. Bizim əsas vəzifəmiz Azərbaycanda sabitliyi qorumaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və ölkəmizi mümkün olan risklərdən qorumaqdan ibarətdir.

Azərbaycan, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və bu təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verir. Ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə bir çox tədbirlər keçirilir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dəyərlərinin qorunması işində apardığımız siyasətə çox yüksək qiymət verir. Biz bundan sonra da təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsi işində öz səylərimizi davam etdirəcəyik. Onu da bildirməliyəm ki, 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə kontakt qrupu yaratmışdır və təşkilat bu münaqişə ilə bağlı bizim haqq işimizi daim dəstəkləyir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var - Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü bərpa edilməlidir.

Biz tarixi, dini abidələrimizi qoruyuruq və burada da dövlət və din bir yerdədir. Son illərdə yüzlərlə məscid tikilmiş və ya təmir edilmişdir. Onların arasında tarixi məscidlərimiz xüsusi yer tutur. Şeyx həzrətləri qeyd etdi, Təzəpir məscidinin ətrafında salınan möhtəşəm park həm şəhərə yeni nəfəs verəcək, yəni, 20 hektar ərazidə salınan yaşıllıqlar bu zonada iqlimin yaxşılaşmasına xidmət göstərəcək, insanların rahatlığı üçün imkanlar yaradacaq. Digər məscidlərimizin əsaslı şəkildə bərpası bizim niyyətimizi, siyasətimizi göstərir. Bibiheybət, Əjdərbəy, Şamaxı Cümə məscidlərinin, “İmamzadə” tarixi-dini kompleksinin əsaslı şəkildə təmir edilməsi dövlət-din münasibətlərinin təzahürüdür. Heydər məscidinin tikintisi tarixi hadisədir.

Bu il Dünya Dini Liderlərinin II Zirvə Görüşü keçiriləcəkdir. Bu məsələ ilə bağlı qərar qəbul edildi. Şeyx həzrətlərinin yubileyi və fəaliyyətinin 40 illiyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəkdir. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər həm ölkəmiz, həm daxildə gedən proseslər, həm də dünya üçün böyük məna daşıyır. Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bizim təşəbbüslərimiz dünya üçün böyük əhəmiyyət daşıyır. Sonuncu böyük tədbir Mədəniyyətlərarası Dialoq Forumu idi. Bu Forum çərçivəsində çox önəmli məsələlər müzakirə edilmişdir və Azərbaycanın bu sahədəki müsbət rolu bir daha qeyd olunmuşdur. Biz bu sahədə öz səylərimizi davam etdirəcəyik. Bu gün Azərbaycan reallıqları belədir ki, ölkəmiz inamla, nikbinliklə irəliyə gedir, nikbinliklə yaşayır. Ölkə qarşısında duran bütün problemlərin həlli üçün bizdə həm güclü siyasi iradə, həm də cəmiyyət tərəfindən böyük dəstək var.

# Azərbaycan Respublikasının şeyxülislamları

*Şeyxülislamlar Azərbaycan tarixində milli şüurun inkişafı və Azərbaycan dövlətçiliyinin yaranması yolunda böyük işlər görüblər.*

*Hacı Allahşükür Paşazadə*

**Şeyxülislamlıq institutunun yaranma tarixi**

Şeyxülislamlıq institutunun yaranma tarixinin kökləri çox qədimlərə gedir və təqribən min illik bir dövrü əhatə edir. Şeyxülislam – İslam rəhbəri və ya ağsaqqalı mənasını özündə ehtiva edir.

İslam dini yeni yaranan dövrlərdə tayfa və nəsil başçılarına aid edilən şeyx ifadəsi İslam dini bərqərar olduqdan sonra daha dərin biliyə malik olanlara, ilahiyyat sahəsində böyük nüfuz sahiblərinə şamil olunmağa başlandı. X əsrdən etibarən isə bu məfhum bir qədər də təkmilləşdi.

İslam dininin inkişafı və geniş əraziləri əhatə etməsi şeyxülislamlıq təsisatının yaradılmasını zəruri etdi. Burada İslam hökmləri, şəriət qaydaları ilə bağlı məsələlər həll edilir, cəmiyyət üçün əhəmiyyət kəsb edən bir çox mühüm tədbirlər şeyxülislamın xeyir-duası ilə həyata keçirilirdi. Artıq şeyxülislam cəmiyyətin həyatında mühüm rol oynayır, insanlar arasında münasibətlərin ədalətli şəkildə tənzimlənməsində təsirli amil kimi çıxış edirdi.

Müsəlmanlar arasında yüksək məqam sahibi olmaq üçün şeyxülislam dini sahədə dərin bilik, savad və erudisiyaya, möminlər arasında isə güclü nüfuz, hörmət və ehtirama sahib olmalı idi. Şeyxülislamı digər din adamlarından fərqləndirən əsas xüsusiyyət onun öz biliyini bir məscidin, bir şəhərin, bir icmanın maraqları baxımından deyil, bütövlükdə Allaha, Vətənə və xalqa xidmət naminə tətbiq etməsi idi.

XIV-XV əsrlərdə şeyxülislam müstəqil bir şəxs idi, yəni bu və ya digər məsələni həll edərkən heç kəsdən asılı olmayaraq müctəhid kimi sərbəst şəkildə fikir yürüdür, yalnız Quran və şəriət hökmlərindən çıxış edir, qərəz güdmədən ümumi işin, əmin-amanlığın və ictimai sabitliyin xeyrinə hökm çıxarırdı. XVI əsrdə Osmanlı sultanlarının hakimiyyəti dövründə şeyxülislamlar dövlət idarəçiliyi və qanunların tənzimlənməsində daha böyük rol oynamağa başladılar.

Orta əsrlərdə Azərbaycanda da şeyxülislamlıq institutu mühüm rol oynamışdı. Təbriz, Dərbənd və s. şəhərlərin şeyxülislamları mötəbər, hörmətli din xadimləri sayılır, molla, qazı və hacıblərə göstərişlər verirdilər.

Beləliklə, şeyxülislam adı fəqihlərə (şəriət hüququ mütəxəssislərinə), ilahiyyatçılara və ali ruhani xadimlərə verilən fəxri tituldur.

XIX əsrin əvvəllərindən Cənubi Qafqazda işlədilən bu ad rus imperatoru tərəfindən şiə icmasının başçısına verilirdi. Türkmənçay müqaviləsindən sonra Azərbaycanın şimal hissəsini öz təsir dairəsinə alan çar Rusiyası Qafqazda dini məsələlərə nəzarət üçün 1823-cü ildə başçı kimi şiə təriqətinə şeyxülislam, 1832-ci ildə isə sünni təriqətinə müfti vəzifələrini təsis etdi. Həmin dövrdən Cənubi Qafqazda şiə müsəlmanlarının dini lideri şeyxülislam adlandırıldı. XX əsrin əvvəllərindən isə şeyxülislam Cənubi Qafqazın bütün müsəlmanlarına rəhbərlik edən dini lider kimi fəaliyyət göstərməyə başladı.

1918-1920-ci illərdə yaradılan Azərbaycan Xalq Cümhuriyyətində "Məşixət-i İslamiyyə" İdarəsinin başçısı "şeyxülislam" adlanırdı. Həmçinin, şeyxülislam 1921-ci ildən 1991-ci ilə qədər keçmiş SSRİ-də Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin, 1991-ci ildən bu günə qədər Azərbaycan Respublikasında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) başçısına verilən addır.

Qeyd edək ki, 1823-cü ildən bu günə kimi Qafqazda 12 şeyxülislam olmuşdur. 1980-ci ildən Qafqazın şeyxülislamı Allahşükür Paşazadə həzrətləridir.

* * * * *

**Şeyxülislam Axund Məhəmmədəli Hüseynzadə**



1823-cü ildə Qafqaz (Zaqafqaziya) şiələrinə (dini) başçılıq etmək üçün Rusiya imperiyası tərəfindən təsis edilən ilk şeyxülislam rütbəsinə Axund Məhəmmədəli Hüseynzadə təyin edilib. O, Azərbaycanın görkəmli publisisti, rəssam və yazıçısı Əlibəy Hüseynzadənin ana tərəfdən babasıdır. Şeyxülislam Axund Məhəmmədəli Hüseynzadə 1852-ci ilə kimi Qafqaz (Zaqafqaziya) Ali Ruhani İdarəsinə rəhbərlik edib. Dini idarə o zaman Qafqazın ictimai və siyasi mərkəzi olan Tiflis şəhərində yerləşirdi.

**Şeyxülislam Fazil İrəvani**



Şeyxülislam Fazil İrəvani haqqında yazılı sənəd tapa bilmədiyimiz üçün ətraflı məlumat verə bilmirik. Bəzi məlumatlara görə, o, 1847-1852-ci illərdə İrəvanda şeyxülislam olub.

**Şeyxülislam Axund Əhməd Hüseynzadə**



Şeyxülislam Məhəmmədəli Hüseynzadə 1852-ci ildə vəfat etdikdən sonra həmin vəzifəyə onun oğlu Axund Əhməd Hüseynzadə (Səlyani) təyin edilir. Görkəmli ilahiyyatçı kimi tanınan bu şəxs ərəb və fars dillərini mükəmməl bilib. Çoxlu dini məzmunlu əsərləri ilə yanaşı ədəbiyyat, tarix, tərbiyə məsələlərindən bəhs edən sanballı elmi kitabların da müəllifi olub. Onun kitabları böyük tirajla nəşr olunub. O, 1884-cü ilə kimi şeyxülislam vəzifəsini icra edib.

**Şeyxülislam Axund Mirzə Həsən Tahirzadə**

XIX əsrdə yaşamış Şeyxülislam Axund Mirzə Həsən Tahirzadə dövrünün qabaqcıl maarifçisi, elm və din xadimi idi. Şərq və Avropa mədəniyyətinə mükəmməl bələd olan alimin adı bütün Qafqazda hörmətlə çəkilərdi. Şeyxülislam Axund Mirzə Həsən 1837-ci ildə Şuşada anadan olub, ilk təhsilini ailədə, sonra isə Şuşa qəza məktəbində alıb. Elm və maarif həvəskarı olan Mirzə Həsən ali ruhani təhsili almaq üçün Təbrizə göndərilib, burada ərəb, fars, tatar və türk dillərinə yiyələnib. Təhsilini başa vurandan sonra ona dini məktəb açmağa icazə verilib. O, Cəbrayıl qəzasının Qarğabazar kəndində məktəb açıb, uşaqlara dərs deyib. Şeyxülislam Axund Mirzə Həsən 1878-ci ildə Peterburq Universitetinin fars dili və ədəbiyyatı kafedrasına müəllim kimi işə başlayır. O, 1885-ci ildə Qafqaz şeyxülislamı və Şiə Ruhani İdarəsinin sədri təyin edilir. Şeyxülislam Axund Mirzə Həsən ömrünün sonunadək (1894-cü ilədək) bu vəzifəni icra edir.

**Şeyxülislam Axund Əbdüssəlam Axundzadə**



Şeyxülislam Axund Əbdüssəlam Axundzadə 1895-ci ildən 1907-ci ilə kimi Qafqaz (Zaqafqaziya) müsəlmanlarının şeyxülislamı vəzifəsini icra edib. O, dini ədəbiyyatın yayılmasına çox kömək edib, eyni zamanda, dinə və şəriətə dair bir sıra kitablar yazaraq nəşr etdirib, müsəlman birliyinə aid rəvayətləri və yazıları da mövcuddur. Çar hökuməti onu 1907-ci il noyabrın 18-də Qafqaz (Zaqafqaziya) Şiə Ruhani İdarəsinin sədri seçərək, ona şeyxülislam və mülki müşavir rütbəsi verib. O, dəfələrlə çar ordenlərinə layiq görülüb.

**Şeyxülislam Hacı Məmmədhəsən Mövlazadə Şəkavi**



Azərbaycanın görkəmli elm və maarif xadimi, İslamın mahir bilicisi, məhşur din xadimi Şeyxülislam Hacı Məmmədhəsən Mövlazadə Şəkavi 1853-cü ildə Şəkidə Gəncəli məhəlləsində anadan olub. M.Mövlazadə Gəncə mədrəsəsində dini və dünyəvi təhsil alıb. O vaxt Tiflisdə çıxan rusdilli qaynaqlardan bəlli olur ki, M.Mövlazadə dərin savada, Quranı avazla oxumaqda qeyri-adi istedada malik bir insan kimi tanınıb. O, əvvəlcə Tiflisdəki Müsəlman Ruhani məktəbində, sonra isə İranda ali dini təhsil alıb. Tiflisə qayıtdıqdan sonra orada - şeyxülislam məktəbində şəriət və fiqhdən dərs deyib. Şeyxülislam M.Mövlazadə İraqa, İrana və Səudiyyə Ərəbistanına səfərlər edərək, biliyini daha da təkmilləşdirib. Dərin biliyə malik olan Hacı Məmmədhəsən Tiflisdə Qafqaz Müsəlmanları Ruhani İdarə heyətinin üzvü seçilib. Axund rütbəsi alan Hacı Məmmədhəsən bir müddət qazi, 1907-ci ildən 1909-cu ilədək şeyxülislam əvəzçisi olub. M.Mövlazadə ərəb, fars və türk dillərini mükəmməl bildiyi üçün Şərq ədəbiyyatı və tarixini dərindən öyrənməyə müvəffəq olub. Onun "kitabü-əl-Bəyan, fitəfsiril-Quran" kitabı 1991-ci ildə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin təşəbbüsü ilə Bakıda İslam əlifbası ilə nəşr olunub.

**Şeyxülislam Axund Məhəmməd Fərculla Pişnamazzadə**



Şeyxülislam Axund Əbdüssəlam Axundzadə vəfat etdikdən sonra şeyxülislam vəzifəsini icra edən və 1909-cu ilə kimi Yelizavetpol (Gəncə) quberniya məclisinin sədri olan Axund Fərəculla Pişnamazzadə 6 il müddətinə bu vəzifəyə təsdiq edilib. Lakin o, bu müddət ərzində rus dilini öyrəndikdən və imperiyaya sadiqliyini göstərdikdən sonra, yalnız 1915-ci il yanvarın 14-də çoxdan əvəzçilik üzrə icra etdiyi şeyxülislam vəzifəsinə təsdiq edilib. O, 1918-ci ilin fevralınadək bu vəzifəni icra etmişdir.

**Şeyxülislam Axund Ağa Əlizadə**



Əsil adı Zeynalabidindir. Molla Ağa Axund 1827-ci ildə Bakının Pirşağı kəndində, tanınmış ruhani Axund Molla Cavadın ailəsində dünyaya göz açıb. Axund Molla Cavad dörd oğlunun dördünü də ruhani, üləma kimi görmək istəyirdi. Bu məqsədlə o, Bakı şəhərinə köçür və Zeynalabidini mədrəsəyə qoyur. Mədrəsə təhsilini başa vurduqdan sonra o, ali ruhani təhsili almaqdan ötrü Ərəbistana gedir və Bağdad əyalətinin Nəcəfül-Əşrəf şəhərində təhsilini davam etdirir. Zeynalabidin ali ruhani olmaqla bərabər, təbabət elmini seçmişdi. 1896-cı ildə təhsilini başa vuran Zeynalabidin "Axund" rütbəsi ilə Bakı şəhərinə qayıdır. Qafqazın (Zaqafqaziya) şeyxülislamı Axund Əbdüssəlam Axundzadənin və Bakı qazisinin vəkaləti ilə onu "Təzə Pir" məscidinə axund təyin edirlər.

Molla Ağa Axund 1899-cu ildən 1927-ci ilə kimi müxtəlif ruhani vəzifələrə seçki yolu ilə seçilib. 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Cümhuriyyətinin elan olunmasından sonra Azərbaycan hökumətinin qarşısında belə bir məsələ durur: Tiflis şəhərində yerləşən Qafqaz (Zaqafqaziya) Müsəlmanları Ruhani İdarəsi Bakı şəhərinə köçürülməli və 1917-ci ildə ləğv edilmiş şeyxülislamlıq vəzifəsi təsis olunmalıdır. Beləliklə, 1918-ci ilin əvvəlində Ruhani İdarəsi Bakıya köçürüldü və Axund Molla Ağa Əlizadə ən yüksək ruhani rütbəsi olan şeyxülislamlığa yeganə namizəd oldu. O, eyni zamanda Məvarayi-Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri idi. Azərbaycanda Sovet Hakimiyyəti qurulduqdan sonra din xadimlərinə qarşı hücumlar başlandı. Həmin dövrdə Axund Ağa da hücum və təqiblərə məruz qalırdı. Böyük Vətən müharibəsi illərində (1941-1945) əvvəllər ləğv edilmiş Qafqaz (Zaqafqaziya) Müsəlmanları Ruhani İdarəsi, nəhayət bu müharibənin dəhşətlərinin dinin qüvvəsi ilə unudulmasına başa düşən bir qrup rəhbərin təklifi ilə (Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi) SSRİ ALİ Soveti Rəyasət Heyətinin 14 aprel 1944-cü il tarixli qərarı ilə 24 ildən sonra yenidən bərpa edildi. 1944-cü il mayın 25-28-də Zaqafqaziya müsəlmanlarının 1-ci qurultayı oldu. Qurultayda Axund Ağa Əlizadə ikinci dəfə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri seçildi və ona yenidən şeyxülislam dini rütbəsi verildi. O, həmin vəzifəni ömrünün sonuna - 1954-cü ilə kimi icra edib.

**Şeyxülislam Axund Şeyx Möhsüm Həkimzadə**



Şeyxülislam Axund Ağa Əlizadənin vəfatından sonra, bölgə müsəlmanlarının həmin ildə çağırılmış 3-cü qurultayında Sabirabad məscidinin axundu Şeyx Möhsüm Həkimzadə şeyxülislam seçilir. Sosializm quruculuğuna, dini ayinlər haqqında Sovet qanunvericiliyinə real münasibət bəsləyən, sülhsevərlik, əməksevərlik, dindarların öz vətəndaşlıq borclarını namusla yerinə yetirməsini təbliğ edən, yüksək natiqlik bacarığı olan bu din xadimi mömin müsəlmanlar arasında böyük nüfuza malik olub. O, 1966-cı ildə vəfat edib.

**Şeyxülislam Molla Əliağa Süleymanzadə**



Şeyxülislam Axund Şeyxmöhsün Həkimzadənin vəfatından sonra iki il həmin vəzifə boş qalır. Yalnız 1968-ci ildə Qafqaz (Zaqafqaziya) müsəlmanlarının 4-cü qurultayında bu vəzifəyə Bakının "Təzə Pir" məscidinin axundu Molla Əliağa Süleymanzadə seçilir. Şeyxülislam Molla Əliağa Süleymanzadə çox mülayim xasiyyətli, Sovet quruluşuna hörmətlə yanaşan, xarici qonaqlarla söhbətlərində, habelə məscidlərdəki moizələrində daim xeyirxahlığı və sülhü təbliğ edən bir din xadimi olub. O, yaxşı ilahiyyat alimi olmasına baxmayaraq, natiqlik qabiliyyəti və səsi olmadığından dini təbliğ etməkdə çətinlik çəkirdi; fəqət, dindarlar ona paklığına və sakit təbiətli olmasına görə hörmət edirdilər. Şeyxülislam Molla Əliağa Süleymanzadə ömrünün sonuna - 1976-cı ilə kimi Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri vəzifəsini icra edib.

**Şeyxülislam Axund Mirqəzənfər İbrahimov**



Mirqəzənfər İbrahimov 1909-cu ildə anadan olmuşdur. Gəncliyində daha çox dünyəvi elmlərə meyl etmiş, gənc yaşlarında bir müddət polis orqanlarında çalışmışdır. Daha sonralar Şeyxülislam Əliağa Süleymanzadənin qəbulunda olmuş, onun yoxlamasından və imtahanlarında uğurla çıxaraq bir müddət Quba məscidində axundluq etmiş, sonralar isə Gəncə məscidinə axund göndərilmişdir.

Axund Mirqəzənfər İbrahimov daha sonra Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədr müavini vəzifəsində çalışmışdır.

Molla Əliağa Süleymanzadənin vəfatından sonra Zaqafqaziya müsəlmanlarının 1977-ci ildə çağırılmış 7-ci qurultayında Göyçay məscidinin axundu Mirqəzənfər İbrahimov Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin yeni sədri - şeyxülislam seçilir. Kamil dini biliyi olmayan, öz dilavərliyi ilə tanınan, lakin mövcud olan sosialist gerçəkliyinə real yanaşan, dindarları fanatizmdən çəkindirməyə çalışan Mirqəzənfər İbrahimov 1980-ci ildə vəfat etmişdir.

**Şeyxülislam Allahşükür Paşazadə**



Şeyxülislam Allahşükür Hümmət oğlu Paşazadə 1949-cu il avqustun 26-da Azərbaycan Respublikası Lənkəran rayonunun Cil kəndində anadan olmuşdur. O, orta məktəbdə oxumaqla yanaşı, yerli ruhanilərdən dini təhsil almağa müvəffəq olmuşdur. 1968-1970-ci illərdə Özbəkistan Respublikasının Buxara şəhərində "Mir-Ərəb" mədrəsəsində təhsilini başa vuran Allahşükür Paşazadə, 1971-ci ildə İmam əl-Buxari adına Daşkənd İslam İnstitutunun ilahiyyat fakültəsinə daxil olmuş və 1975-ci ildə bu ali ruhani təhsil ocağını müvəffəqiyyətlə bitirərək tam ali dini təhsilə yiyələnmişdir.

Allahşükür Paşazadə 1975-ci ildən Qafqaz Müsəlmanları İdarəsində məsul katib vəzifəsində çalışmış, 1978-ci ildə isə Təzəpir məscidinin axundu və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini seçilmişdir. 1980-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri seçilərək şeyxülislam rütbəsi almışdır, eyni zamanda, Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının sədridir. Qeyd edək ki, 2003-cü ildən bu titul Hacı Allahşükür Paşazadəyə ömürlük verilmişdir.

**Mənbə:**
**Qafqaz Müsəlmanları İdarəsnin saytı**

## TANAP Türkiyənin regional enerji təhlükəsizliyinin güclənməsindəki rolunu artırıb



Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TANAP təbii qaz boru kəməri layihəsinin birinci fazasının yekunlaşması ilə Türkiyənin regional və Avropa İttifaqı (Aİ) hüdudlarında enerji təhlükəsizliyinin güclənməsindəki rolu artıb. Bu barədə Avropa Komissiyasının "Türkiyə 2019" hesabatında deyilir.

Hesabatda TANAP-ın ilkin fazasının keçən ilin iyununda yekunlaşdığı qeyd edilir. Bildirilir ki, bu ilin iyununda TANAP-ın ikinci fazasının, yəni qazı TAP üzərindən Avropaya nəql edəcək mərhələnin tamamlanması planlaşdırılır.

Qeyd edək ki, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizinin seqmentini təşkil edən TANAP keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyə bu vaxtadək TANAP-la 1,9 milyard kubmetr Azərbaycan təbii qazı alıb. İyunun sonunadək bu həcm 2 milyard kubmetr, cari ilin axırına kimi isə 4 milyard kubmetrə çatacaq. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası üzrə tikinti işlərinin 99 faizi başa çatıb. Boru kəməri bu il "Trans-Adriatik" (TAP) qaz boru kəmərinə birləşmək üçün hazır olacaq. Layihə üzrə kapital xərcləri 8 milyard dollardır və bu vaxtadək TANAP-a təqribən 6 milyard dollar xərclənib.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və Avropaya nəql edəcək TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşəcək. Avropa Komissiyasının ortaq maraqlara xidmət edən 33 prioritet enerji təhlükəsizliyi layihəsi siyahısına daxil olunan TAP üzrə isə işlərin 87,5 faizi tamamlanıb. Uzunluğu 870 kilometr və dəyəri 4,5 milyard avro olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamıdır.

## Yeni Karbamid zavodunun tikilməsinə dair anlaşma memorandumu imzalanıb

SOCAR-ın prezidenti Rövnəq Abdullayev Türkiyənin "Tekfen" şirkətlər qrupunun idarə heyətinin sədri Murat Gigin və şirkətlər qrupunun prezidenti Cahit Oklapın rəhbərlik etdikləri nümayəndə heyəti ilə görüşüb.

Şirkətdən bildirilib ki, görüş çərçivəsində R.Abdullayev və M.Gigin Azərbaycanda yeni Karbamid zavodunun tikilməsinə dair qarşılıqlı anlaşma memorandumu imzalayıblar.



SOCAR uğurla ərsəyə gətirdiyi mövcud Karbamid zavodunun tikintisində əldə etdiyi təcrübəyə əsaslanaraq Sumqayıtda gündəlik istehsal gücü 1200 ton ammonyak və 2000 ton karbamid həcmində olan yeni istehsalat obyektinin tikintisini nəzərdən keçirir. Memorandumda, həmçinin mövcud və yeni gübrə kompleksinin məhsullarının marketinqi üzrə əməkdaşlıq nəzərdə tutulur.

SOCAR bu gün şaquli inteqrasiya olunmuş çevik və yüksək rəqabət qabiliyyətli bir şirkət kimi neft və qaz sənayesinin müxtəlif sahələrində uğurla fəaliyyət göstərir. Son illərdə şirkət neft və qaz kimyası sənayesində fəaliyyətini əhəmiyyətli dərəcədə artırıb, Azərbaycanda polimer məhsulları və karbamid gübrəsinin istehsalı üzrə yeni zavodlar inşa edərək istismara verib.

"SOCAR Polymer" və "SOCAR Karbamid" zavodları şirkətin dəyər zəncirində son halqalar olaraq öz xammalını SOCAR-ın digər müəssisələrindən əldə edir və bu sinerjidən böyük miqyasda əlavə dəyər yaranır. SOCAR Azərbaycanın gəlirlərinin artırılması və ölkədə yeni iş yerlərinin yaradılması məqsədi ilə yeni investisiya imkanlarını araşdırmaqda davam edir.

## Martda Türkiyə Azərbaycandan 591 milyon kubmetr təbii qaz idxal edib

Bu barədə Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatı (EPDK) məlumat yayıb. Bildirilir ki, martda Türkiyənin Azərbaycandan idxal etdiyi qazın həcmi fevralla müqayisədə 92 milyon kubmetr azalıb. Azərbaycan martda Türkiyənin ən çox qaz idxal etdiyi ölkələr sırasında Rusiya (2,4 milyard kubmetr) və İrandan (739 milyon kubmetr) sonra üçüncü olub.

Yanvarda Türkiyə Azərbaycandan 808 milyon kubmetr, fevralda 683 milyon kubmetr, martda isə 591 təbii qaz idxal edib. Ümumilikdə, birinci rübdə qardaş ölkənin Azərbaycandan qaz idxalı 2 milyard 82 milyon kubmetr təşkil edib.



Qeyd edək ki, Türkiyə Azərbaycandan təbii qazı Cənubi Qafqaz Boru Kəməri (CQBK) (Bakı-Tbilisi-Ərzurum) və TANAP-la idxal edir.

2006-cı ilin sonlarında istismara verilən CQBK hazırda Azərbaycan, Gürcüstan və Türkiyəyə "Şahdəniz" qazını çatdırır.

Bu ilin ilk 3 ayında CQBK və genişləndirilən Cənubi Qafqaz Boru Kəmərinin (CQBKG) birgə gündəlik orta ötürücülük gücü 30 milyon kubmetrdən çox olub. Rüb ərzində CQBK ilə bağlı fəaliyyətlərə təqribən 9 milyon dollar əməliyyat və 17 milyon dollar isə əsaslı xərclər sərf edilib.






# "Azərkosmos" 18 ölkəyə 13,7 milyon dollarlıq xidmət ixrac edib




Yanvar-aprel aylarında "Azərkosmos" ASC 18 ölkəyə 13,7 milyon ABŞ dolları dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edib.
"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 89 faizini təşkil edib. Apreldə "Azərkosmos" ASC tərəfindən 17 ölkəyə 6 milyon dollarlıq xidmət ixrac olunub.
"Azərkosmos" ASC-nin bu ilin yanvar-aprel aylarında xidmət ixracı həyata keçirdiyi əsas ölkələr ABŞ, Malayziya, Fransa, Birləşmiş Krallıq, Birləşmiş Ərəb Əmirlikləri olub.

# 16,5 milyon dollarlıq qeyri-neft ixracı həyata keçirilib



Mayda "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 16,5 milyon ABŞ dolları olub.
Yanvar-may aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən yüzlərlə sahibkara ixracla bağlı müvafiq sertifikatlar verilib. Bunun nəticəsində 47,9 milyon dollar dəyərində qeyri-neft ixracı həyata keçirilib.

# Azərbaycanda innovasiya ekosisteminin inkişafı üçün böyük potensial var




ABŞ-ın Azərbaycandakı səfiri Li Litsenberqer İnnovasiyalar Agentliyində olub. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, İnnovasiyalar Agentliyində nazir Ramin Quluzadə ilə L.Litsenberqer arasında görüş keçirilib. Görüşdə səfirə agentliyin fəaliyyəti barədə məlumat verilib. L.Litsenberqer İnnovasiyalar Agentliyinin Laboratoriya, biznes inkubasiya və akselerasiya mərkəzi ilə tanış olub.
Daha sonra yerli startapçılar və ABŞ-ın IT şirkətlərinin Azərbaycandakı nümayəndəlikləri ilə görüş keçirilib. Azərbaycanda innovasiya və yüksək texnologiyalar sahəsinin inkişafı ilə bağlı görülə biləcək işlər və gələcək planlar barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda, yerli startapların ABŞ akselerator və investorları ilə daha geniş əməkdaşlıq perspektivləri haqqında danışılıb.
Bu günə qədər 6000-dən çox azərbaycanlının mübadilə proqramı əsasında ABŞ-da olduğunu bildirən səfir vurğulayıb ki, bu rəqəmi qənaətbəxş hesab etmək olmaz.
"Düşünürəm ki, Azərbaycanda innovasiya ekosisteminin inkişafı üçün böyük potensial var. Mübadilə proqramlarının sayı artırılmalıdır. Belə proqramlar iki ölkə arasında əməkdaşlığın genişlənməsinə kömək edir. Səfirliyin büdcəsi məhdud olduğuna görə biz özəl şirkətlərin bu cür proqramlara sponsor olmasını arzu edirik", - deyə o bildirib.
İnnovasiyalar Agentliyinin qurulması haqqında danışan nazir R.Quluzadə bildirib ki, ölkə rəhbərliyinin təşəbbüsü ilə Azərbaycanda innovasiya infrastrukturu formalaşdırılır:
"İnformasiya-kommunikasiya texnologiyaları sahəsi dünyada dinamik inkişaf edir. Bu sahə ölkəmiz üçün də prioritet sahələrdən biridir və Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir".
Nazir qeyd edib ki, dövlət başçısı tərəfindən müəyyən edilmiş siyasətə uyğun olaraq ölkənin davamlı inkişafını təmin etmək üçün qeyri-neft sektoru, o cümlədən informasiya-kommunikasiya texnologiyaları və yüksək texnologiyalar sahəsi sürətlə inkişaf etdirilir.

# Turizm sahəsində çalışan sahibkarlara 45,5 milyon manat güzəştli kredit verilib

Sahibkarlığın İnkişafı Fondunun xətti ilə bu vaxtadək Azərbaycanda turizm sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə 45,5 milyon manat güzəştli kredit verilib.
Bu barədə İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov iyunun 3-də Bakıda keçirilən "Azərbaycanda turizmin inkişaf perspektivləri və bu sahədə fəaliyyət göstərən sahibkarların dövlətin güzəştli maliyyə resurslarına çıxış imkanlarının artırılması" mövzusunda konfransda deyib.



# Qeyri-neft sektoru üzrə ixrac 20 faiz artıb

Yanvar-aprel aylarında Azərbaycanın ixracı 7,1 milyard ABŞ dolları təşkil edib və ötən ilin müvafiq dövrünə nisbətən 1,4 milyard dollar və ya 25,6 faiz artıb.
Bu müddətdə qeyri-neft sektoru üzrə ixrac isə 583 milyon dollar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-aprel aylarında qeyri-neft sektoru üzrə ixrac 98 milyon dollar və ya 20 faiz artıb. Dörd ayda Rusiyaya 165 milyon, Türkiyəyə 148 milyon, Gürcüstana 62 milyon, İsveçrəyə 45 milyon və İtaliyaya 22 milyon dollarlıq qeyri-neft sektoruna aid məhsul ixrac edilib. Keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ilk 4 ayında Rusiyaya qeyri-neft ixracı 22 faiz, Türkiyəyə 16 faiz, Gürcüstana 19 faiz, İsveçrəyə 13 faiz, İtaliyaya 2 dəfə artıb.
Yanvar-aprel aylarında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısına mahlıc (57,9 milyon dollar) liderlik edib. Bu siyahıda qabığı təmizlənmiş meşə fındığı (53,7 milyon dollar) ikinci və tomat (49,6 milyon dollar) üçüncü yerdə qərarlaşıb. Ümumiyyətlə, hesabat dövründə meyvə-tərəvəz ixracı 149 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 62 milyon, pambıq lifi ixracı 58 milyon, elektrik enerjisinin ixracı 45 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 32 milyon, kimya sənayesi məhsullarının ixracı 24 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 18 milyon, pambıq ipliyi ixracı 9 milyon dollar, alkoqollu və alkoqolsuz içkilərin ixracı 9 milyon təşkil edib.




Apreldə qeyri-neft sektoru üzrə ixrac 167 milyon dollar təşkil edib. Ən çox məhsul Rusiyaya, Türkiyəyə və Gürcüstana ixrac edilib.
Ötən ay qeyri-neft sektoru üzrə ixracda tomat birinci, daranmaya məruz qalmamış pambıq lifi ikinci, qabığı təmizlənmiş meşə fındığı üçüncü olub.

# Premium Bank ASC-nin 31 dekabr 2018-ci il tarixə BALANS HESABATI

| | Qeydlər | 2018 AZN | 2017 AZN |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Nağd vəsaitlər və Mərkəzi Bankda pul vəsaitləri | 5 | **53,302** | 48,140 |
| Digər banklardakı pul vəsaitləri | 7 | **10,459** | 12,580 |
| Müştərilərə verilmiş kredit və avanslar | 8 | **552,127** | 393,630 |
| Əmlak və avadanlıq | 9 | **4,184** | 3,431 |
| Qeyri-maddi aktivlər | | **724** | 448 |
| Digər aktivlər | 10 | **4,032** | 4,450 |
| **Cəmi aktivlər** | | **624,828** | 462,679 |
| **Öhdəliklər** | | | |
| Bank və maliyyə təşkilatlarından kredit ve depozitlər | 11 | **40,810** | 109,951 |
| Müştərilərdən depozitlər | 12 | **466,111** | 242,055 |
| Digər öhdəliklər | 13 | **4,637** | 4,084 |
| **Cəmi öhdəliklər** | | **511,558** | 356,090 |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 14 | **104,601** | 104,601 |
| Bölüşdürülməmiş mənfəət | | **11,919** | 1,988 |
| **Cəmi kapital** | | **116,520** | 106,589 |
| **Cəmi kapital və öhdəliklər** | | **624,828** | 462,679 |

31 dekabr 2018-ci ildə tamamlanmış ilin maliyyə hesabatları 30 aprel 2019-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmiş və aşağıdakılar tərəfindən onların adından imzalanmışdır:

Mahir Əhmədov
İdarə heyətinin sədri

Mahir Nəcəfov
Maliyyə direktoru

Bakı, Azərbaycan Respublikası

PREMIUM BANK

**Məcmu gəlir hesabatı**

| | Qeydlər | 2017 AZN | 2016 AZN |
|---|---|---|---|
| Faiz gəlirləri | 15 | **37,556** | 27,803 |
| Faiz xərcləri | 15 | **(14,803)** | (11,751) |
| **Xalis faiz gəlirləri** | 15 | **22,753** | 16,052 |
| Müştərilərə verilmiş kredit və avanslar üzrə ehtimal edilən zərərlər üçün ayrılmış ehtiyat | 8.1 | **5,867** | (7,214) |
| **Ehtimal edilən zərərlər üzrə ehtiyatlardan sonra faiz gəlirləri / (xərcləri)** | | **28,620** | 8,838 |
| Xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir | 16 | **7,334** | 9,083 |
| Haqq və komissiya gəlirləri | 17 | **14,204** | 9,495 |
| Haqq və komissiya xərcləri | 28 | **(3,890)** | (2,605) |
| **Əməliyyat gəlirləri** | | **46,268** | 24,811 |
| Digər gəlirlər | 19 | **(60)** | 36 |
| Köhnəlmə və amortizasiya xərcləri | 20 | **(769)** | (570) |
| İnzibati və ümumi xərclər | 21 | **(29,764)** | (22,139) |
| **Vergidən əvvəlki illik mənfəət** | | **15,675** | 2,138 |
| Mənfəət vergisi | 22 | **(2,992)** | (539) |
| **İllik mənfəət** | | **12,683** | 1,599 |
| Digər məcmu gəlirlər | | **-** | - |
| **İl üzrə cəmi məcmu gəlir** | | **12,683** | 1,599 |
| | 29 | **18.68** | 2.35 |

# "Neman İKF" MMC-nin 31 dekabr 2018-ci il tarixə BALANS HESABATI

| AKTİVLƏR | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-cü il |
|---|---|---|
| Uzunmüddətli aktivlər | | |
| Torpaq,tikili və avadanlıqlar (əsas vəsaitlər) | 3494917,59 | 3251102,76 |
| Qeyri- maddi aktivlər | 142768,24 | 574415,00 |
| İnvestisiyalar | | 29079,61 |
| İştirak payı metodu ilə uçotu alınmış investisiyalar | 3557050,00 | 3000000,00 |
| | **7194735,85** | **6854597,37** |
| Qısamüddətli aktivlər | | |
| Ehtiyatlar | 3541718,25 | 4241692,51 |
| Qısamüddətli debitor borcları | 504846,97 | 669497,4 |
| Pul vəsaitləri vəsaitləri və onların ekvivalentləri | 770418,92 | 119190,64 |
| Sair qısamüddətli aktivlər | 385631,71 | 69445,5 |
| Sair qısamüddətli maliyyə aktivləri | - | - |
| Cəmi qısamüddətli aktivlər | **5202615,88** | **5099826,05** |
| **CƏMİ AKTİVLƏR** | **12397351,73** | **11954423,42** |
| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapital | 3000100,00 | 3000100,00 |
| Kapital ehtiyatları | | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 752384,64 | 47734,33 |
| **Cəmi Kapital** | **3752484,64** | **3047834,33** |
| Öhdəliklər | | |
| Uzunmüddətli öhdəliklər | | |
| Uzun müddətli faiz xərcləri yaradan öhdəliklər | - | - |
| Qısamüddətli öhdəliklər | | |
| Qisamüddətli faiz xərcləri yaradan öhdəliklər | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 296,13 | |
| Qisamüddətli kreditor borcları | 1012187,91 | 695666,7 |
| Sair qısamüddətli öhdəliklər | 7632383,05 | 8210922,39 |
| | **8644867,09** | **8906589,09** |
| CƏMİ ÖHDƏLİKLƏR | **8644867,09** | **8906589,09** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **12397351,73** | **11954423,42** |

| MƏNFƏƏT VƏ ZƏRƏRİN HESABATİ (icmal) | 2018-ci il | 2017-ci il |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 7692609,41 | 3017484,45 |
| Satışın maya dəyəri | -7162648,79 | -2810431,3 |
| Ümumi mənfəət, zərər | **529960,62** | **207053,15** |
| Sair əməliyyat gəlirləri (icarədən) | 656402,58 | 389021,47 |
| Sair əməliyyat xərcləri | -363521,34 | - |
| İnzibati xərclər | -40688,13 | -46574,61 |
| Əməliyyat mənfəəti (zərəri) | **782153,23** | |
| Maliyyə gəlirləri(faiz gəlirləri)müsbət məzənnə fərqi | **102186,96** | **63662,36** |
| Maliyyə gəlirləri(faiz gəlirləri)mənfi məzənnə fərqi | **-2817,46** | **-20292,28** |
| Keçmiş illərin zərərinə silinib | | |
| Vergidən azad olan gəlirlər | | |
| Vergi tutmadan əvvəl mənfəət (zərər) | **881522,73** | **592870,09** |
| Mənfəət vergisi | -176304,65 | -118574,02 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | **705218,08** | **474296,06** |

**31 dekabr 2018-ci il tarixə kapitalda dəyişikliklər hesabatı (icmal)**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **01.01.2017-ci il tarixə qalıq** | **3000100** | **-352049,68** | **2648050,32** |
| 2018-ci il üzrə mənfəət (zərər) | - | 474296,06 | 474296,06 |
| Maddələr arasında köcürülmələr | - | -74512,35 | -74472,05 |
| **31dekabr2017-ci il tarixə qalıq** | **3000100** | **47734,33** | **3047834,33** |
| 2018-ci il üzrə xalis mənfəət (zərər) | | 705218,08 | 705218,08 |
| Maddələr arasında köcürülmələr | | (567,77) | (567,77) |
| **31 dekabr 2018-ci il tarixə qalıq** | **3000100** | **752384,64** | **3752484,64** |

**SA/237 saylı, 047441 seriyalı lisenziyaya əsasən fəaliyyət göstərən sərbəst auditor Xaləddin Cəlal oğlu Əliyev tərəfindən təsdiqlənmişdir.**

## İqtisadçının Ramazan təbriki

# İslam bankçılığı davamlı inkişaf amili kimi

Avstriya iqtisadi məktəbinin görkəmli nümayəndəsi Lüdviq Fon Mizes deyib: "Görəsən, iqtisadiyyatın əsas sualı nədir? Erkən dövrlərdə insanlar fikirləşiblər ki, iqtisadiyyatın əsas sualı odur ki, görəsən, Allah bizdən nə istəyir? Sonrakı dövrlərdə, yəni XIX əsrin sonu - XX əsrin əvvəlində düşünüblər ki, yox əsas sual odur ki, görəsən, dövlət bizdən nə istəyir? Sonra, artıq XXəsrin ikinci yarısından fikirləşiblər ki, yox, əsas sual odur ki, görəsən, insan bizdən nə istəyir?" Mən düşünürəm ki, sistem o vaxt təkmil və davamlı ola bilər ki, o Allahın, dövlətin, insanın vətəndaşın mənafeyinə uyğun olsun. İslam bankçılığıda məhz belə bir sistemdir.

**İslam bankçılığının yaranması**

Dünyada İslam bankçılığı daha çox "faizsiz bankçılıq" kimi xarakterizə olunmaqdadır. İlk dəfə bu sistemə uyğun bank 1950-ci illərin sonunda Pakistan kəndində işə başlayıb. 1963-1966-cı illərdə Misirli iqtisadçı alim Əhməd Elnaqarın modeli əsasında İslam bankı bu ölkənin kəndində fəaliyyət göstərmişdir. Bəzi mənbələr başqa misallar da çəkir. Hazırda İslam bankçılığının həcmi 2 trilyon ABŞ dollarını üstələmişdir. Faizli bankçılığa nəzərən onun aktivləri daha tez artır. İslam bankçılığının əsas alətləri:

*- satışa əlavə edilən xərc və ya nağd satış (moharaba-qısamüddətli), lizinq (icara), etibarlı maliyyələşmə, yəni pulu tam həcmdə bank qoyur, müştəri isə idarə edir (modaraba), səhmdar payçılıq-şəriklik (musharika) daxildir.*

İslam banklarının faizli banklardan fərqli cəhətləri:

**İstehlak və ipoteka kreditləri**

Müştəri faizli bankdan aldığı krediti əsas məbləğ və faizlə birgə qaytarır. İslam bankı isə əvvəlcədən malı alır, üzərinə mənfəətini qoyur və müştəriyə kreditə satır. Prinsipcə mexanizmlər bir-birinə uyğundur. Nəticə etibarı ilə "faiz" sözündən qaçılmış olur.

**Biznes kreditləri**

İslam bankı ilə faizli bankın əsas fərqi biznes kreditlərindədir. Faizli bank kredit verdikdən sonra əsas məbləği və faizləri almağı nəzərdə tutur. İslam bankı isə bu halda layihəyəşərik olur. İslam bankının biznes kreditlərindəki əlverişlilik ondadır ki, layihə müsbət nəticəıldə etməsə və pul qaytarılmasa, bank kredit-layihə obyektindən başqa heç nə istəmir. Lakin müştərinin layihəsi proqnozdan çox mənfəətli olsa, İslam bankına daha böyük məbləğödəməli olur. Faizli bank isə pulunu qaytarmaq üçün bəzi hallarda müştərinin yaşadığı evi belə satdırmağa çalışır. İslam bankı müştərinin girovuna yox, layihənin dəqiq təhlilinə arxalanır. Qeyd edək ki, faizli bankların köçürmə haqqı və sair əməliyyatlarına görə alınan haqq islam qaydalarını pozmaya bilər, verilən pulun şişməsi nəticəsində alınan faiz islam qaydalarına ziddir.

**Əmanətlər**

Müştəri faizli banka əmanət qoyarkən sabit ödənişlər alacağından arxayın olur. İslam bankına əmanət qoyarkən isə müştəri bankın şəriki olur. Müştəri bankın mənfəət və zərərlərini bölüşür. Bankın mənfəəti çox olduqca müştəri də əmanətinə görə yüksək gəlir qazanır. Əksinə, bank mənfəət qazanmadıqda müştəri dəəmanətinə görə heç nəqazanmır. Bank zərərlə qarşılaşanda isə müxtəlif İslam banklarının müxtəlif yanaşmaları olur (bəzi hallarda əmanət azala bilər).

Yəni, İslam bankı ümumi fond prinsipi ilə fəaliyyət göstərir. Yüz minlərlə əmanətçi ona pul yatırır, minlərlə iş adamı ondan kredit götürür. Bir neçə müştərinin layihəsindəki uğursuzluq bank və onun əmanətçiləri üçün təhlükə yaratmır. Sistem böyüdükcə onun dayanıqlığı artır.

Ümumiləşdirərək deyə bilərik ki, İslam bankçılığında hamı: yəni, əmanətçi, bank, borc götürən iş adamı eyni maraqda olur. Layihənin uğurlu olmasını çox adam Allahdan arzulayır. Yeri gəlmişkən, arzuların gerçəkləşməsinin mexanizmi haqqında maraqlı bir fikri nəzərinizə çatdırmaq istəyirəm. Onu italyan yazıçısı Covanni Bokkaçço bildirib. Ədibin fikrincə, arzular ox şəklində Allahın dərgahına gedir. Əgər bu arzuya qarşı başqa arzu yoxdursa, onda o, müqəddəs təbəqəyə çatır. Əks halda arzu-oxlar toqquşur və arzu məqsədə çatmayaraq xəyal olaraq qalır.

**Şəriətə zidd fəaliyyət riski**

İslam bankları əməliyyatlarının şəriətə müvafiq olmalarını (shariah – compliant) müəyyən etməli və ondan sonra fəaliyyətlərini həyata keçirməlidir. Bunun üçün İslam banklarında xüsusi təsisat - şəriət şurası (shariah board) olur. Bu şurada yüksək səviyyəli İslam alimləri və ekspertləri toplanır.

***İslam bankçılığında icazə verilməyən sahələr 4-dür:qumar biznesi və şərab, tütün, silah istehsalı. Yeri gəlmişkən, deyim ki, bəzən İslamı terror dini adlandırırlar. Amma islam ideologiyasında olan bir bank silahın istehsalına kredit vermirsə, belə bir din terror dini ola bilərmi?***

İslam bançılığının əsasında Quranın Əl-Bəqərə surəsi, 275, 276-cı ayələr dayanır. 275-ci ayə: **"...Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir...". 276-cıayə: "Allah sələmi puç edir, sədəqələri isə artırır...".**

Bəs, islamdan əvvəlki dövrdə faizsiz maliyyə haqqında fikirlər olubmu? Olub. Bu barədəRusiyanın "Voprosı ekonomiki" ("İqtisadiyyat sualları") jurnalında "Ssuda faizi dini münasibətlər kontekstində" məqaləsində geniş bəhs edilir.

Aristotel deyib ki,pulun balası olmamalıdır. Əvvəlki müqəddəs mənbələrdə də faizə qismən qadağalar var.

***Bəs, faizli iqtisadiyyatın mahiyyəti nədədir?***

Faiz nəzəriyyəsinə baxaq. Avstriya marjinal məktəbinin nümayəndəsi Oygen fon Bem-Baverk (1851-1914) "Gözləmə" nəzəriyyəsini əsaslandırıb. Bu nəzəriyyə kapitala olan faizin mənşəyi, səviyyə və dinamikasının mahiyyətini açıqlayır. Nəzəriyyənin mərkəzi ideyası ondan ibarətdir ki, istehsal vasitələrinin öz dəyərini yeni yaradılan əmtəənin üzərinə keçirməsi müəyyən vaxt tələb edir. Faiz də bu vaxta görə alınır. Bəzi subyektlər maddi dəyərləri dərhal əldə etmək istəyir, bəziləri isə gözləyə bilir. Bem-Baverkə görə isə, faiz kapitalın gəliridir. Faiz bu günkü nemətlərin sabahkı nemətlərə artım nəzərə alınmaqla dəyişilməsidir.

C.Stüart buna "Məhrumiyyət nəzəriyyəsi" deyir. Ona görə bu gün nemətlərdən imtina sabah mükafatla təmin olunmalıdır. Marşal, Kessel nəzəriyyəsinə görə, kapital sahibini mükafat gözləyir və bu da borc götürəni mənfəət əldə etməyə sövq edir. Yəni, sistem elementləri bir-birini qıcıqlandırır və səmərəli hərəkətə sövq edir. Hətta belə bir fikir var ki, faizin başqa ifadəsi olan inflyasiyanın mülayim növü iqtisadi artıma kömək edir.

***Bəs, İslam bankçılığında stimul nədədir?***

*- vicdanda;*

*- Allaha etiqadda;*

*- İnsana və onun uğur tarixinə inamda.*

Faizli bankçılığın yaratdığı problemlər: italyan rəssamının bu barədə əsəri var. Şəklin mahiyyətini izah etmək istəyirəm. Bank nümayəndəsi borcu qaytara bilməyən şəxsin evinə gəlir və əşyaları yığıb aparmaq istəyir. Görür ki, əşyalar, hətta piano hamilə qadının çarpayısıüzərinə yığılıb. İtaliya qanununa görə, bank hamilə qadının çarpayısının üstündəki əşyalara toxuna bilməz. Görün, bu nə qədər sosial problemlərə yol açıb ki, qanunvericiliyə də bununla bağlı müddəalar salınıb vəhadisələr rəsm əsərlərində təsvir olunub.

Bu gün Azərbaycanda da bununla bağlı problemlər var. Vətəndaşların məhkəmələrdə 616 milyon manat həcmində vəsaiti əhatə edən 311 mindən çox işi var (mənbə:https://www.kommersant.az/news/bank/12714.html.).

Bu, əsasən 2015-ci ildə manatın devalvasiyalarından sonra iqtisadi şəraitin əhəmiyyətli dəyişməsi nəticəsində olmuşdur.

Ona görə də bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 fevral 2019-cu ildə "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Fərman"ı imzaladı.

Amma burada bir məqam da var. Bu fərmanla əlaqədar insanlar sevinir və elə düşünürlər ki, bu pul sanki kənardan bizə hədiyyə gəlir. Amma elə deyil, bu vəsait dövlət büdcəsinin hesabına ödənilir. Bəs, dövlət büdcəsi kimin hesabına formalaşır? Vaxtilə banka müraciət etməyən, bəzi hallarda deyə bilərik ki, nəfsini saxlamış insanların ödədiyi vergilər hesabına. Deməli, əhalinin bir hissəsi o biri hissəsinin pulunu ödəyir. Bu gün, əlbəttə, çətin vəziyyətə düşmüş vətəndaşlara kömək etmək lazımdır. Amma məsələnin kökünü də axtarmaq lazımdır. Burada başqa səbəblər olsa da, nəticə etibarı ilə faizli bankçılığın fəsadıdır. Faizli bankçılıq iqtisadiyyatın dayanıqlığına mənfi təsir edir, riskləri artırır. Ona görə İslam bankçılığını inkişaf etdirmək lazımdır. Sabiq Roma papası XVI-cı Benedikt 2007-2008-ci illər Dünya maliyyə böhranı ilə əlaqədar demişdir: "Bizim banklarımız da İslam bankları kimi çalışsaydı, dünya maliyyə böhranı zamanı iflaslar olmazdı".

**İslam banklarında insanpərvərlik prinsipi hökm sürür**

Müştərinin faizli bankçılıqda ödəmələrini zamanında etməsi üçün gecikməyə görə cərimələr var. İslam bankçılığında cərimələr müştərinin ödənişləri gecikdirməməsinə yönəldilib və bank cəriməni Mənfəət və Zərər Hesabatına (indiki İFRS terminologiyasına uyğun Maliyyə Vəziyyəti Haqqında Hesabat) yazmır, yəni cərimələri mənfəət saymır. Çünki borcun həcminin çoxaldılması İslamda riba sayıldığından qadağandır. Banklar bu cəriməni xeyriyyə fondlarına bağışlayır. Bu, bankın likvidliyini artırır.

"The Financial Times" bildirir ki, Beynəlxalq Valyuta Fondunun son tədqiqatına əsasən, İslam prinsipləri (şəriət) əsasında çalışan maliyyə-kredit təsisatlarına olan maraq çox sürətlə artır. Mütəxəssis hesablamalarına əsasən, yaxın vaxtlarda dünyadakı 1,6 milyard müsəlman əhalinin pullarının yarısı bu cür banklardakı hesablarda olacaq.

Dünyanın bir sıra iri bankları islam qaydaları ilə işləyən xüsusi şöbələrə malikdir:

**1. Sitibank**
**2. UBS**
**3. HSBC**
**4. Commerzbank**
**5. Europe Arab Bank Plc,London**
**6. İslamic Bank of Britain**
**7. ABS İnternational Bank, London**
**8. BADR bank, Russia**
**9. Deutsche Bank və s.**

**Faizsiz bankçılıq dünyada maraqlı addımlarla inkişaf edir**

Sberbank (SSRİ Əmanət Bankının Rusiya təsisatının varisi) Rusiyada İslam Bankçılığının İnkişafının Yol Xəritəsini hazırlayıb. Rusiya əhalisinin təqribən 15%-ə qədəri müsəlmandır və onun xüsusi çəkisi təbii artım və miqrantlar hesabına artır. Sberbank müasir meyli (trendi) qaçırmaq istəmir. Qeyd edim ki, bu bankın sədrinin İslam bankçılığıüzrə köməkçisi həmyerlimiz, Azərbaycan Beynəlxalq Bankının sabiq İslam bankçılığı departamentinin rəhbəridir. Moskva və Ümumrusiya patriarxı Kiril isəpravoslav bankçılığın yaradılması təklifi ilə çıxış edir.

İslam İnkişaf Bankı hal-hazırda Azərbaycanın 5 kommersiya bankına öz dəstəyini davam etdirir:

**1. Azərbaycan Beynəlxalq Bankı**
**2. Unibank**
**3. Turanbank**
**4. Rabitəbank**
**5. Əmrahbank**

Düşünürəm, Azərbaycanda İslam bankçılığının inkişafında əsas problemlər bunlardır:

**1. İnam indeksi**

Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanda inam indeksi aşağı səviyyədədir. Mütəxəssislər bunun təqribən 30 faiz olduğunu bildirir. Yəni, insanların banklara, bankların insanlara inam səviyyəsi aşağıdır.

**2.Faiz əhali və hüquqi şəxslərin tutarlı gəlir mənbəyidir**

28 fevral 2019-cu il tarixə qeyri-maliyyə institutlarının müddətli depozitləri 7.0575 milyard manat təşkil edir (fiziki şəxslərin 5,330.0 milyard manat, hüquqi şəxslərin 1,727.5 milyard manat ekvivalenti).

Orta faiz dərəcəsininin milli valyutada 10.01%, xarici valyutada 2.66% olmasını nəzərə alaraq hesablaya bilərik ki, fiziki və hüquqi şəxslərin banklardan aldıqları illik faiz gəliri təqribən 400 milyon manat həcmindədir. Bankdan kənar qeyri-leqal sələmçiliyi də bu rəqəmə əlavə etsək göstəricilər artacaq.

**Mənbə 1:** Maliyyə Bazarlarına Nəzarət Palatası.

**3. İnstitusional problemlər, qanunvericilik problemləri**

***İslam maliyyəsinin inkişafı üçün nə etməli?***

Zənnimcə, bununüçün 3 səviyyədə iş aparılmalıdır:

**1.Dövlət səviyyəsi;**
**2.Bank səviyyəsi;**
**3.Əhali səviyyəsi.**

Tərtib etdiyim sxemlər dövlət, ictimai qurumlar və bankların bu istiqamətdə birgə fəaliyyətini təmin edə bilər (sxem 1, 2).




**Sxem 1**




**Sxem 2**

**1. Dövlət səviyyəsi.** Sərmayə mühitinin yaxşılaşması və mənfəətə əsaslanan maliyyə alətlərinin səmərəliliyinin artırılması mənəvi əsaslara iqtisadi dəstək verə bilər. Sxem 1-də Maliyyə Nazirliyi çərçivəsində yazdığım sukuk faizi bilinməyən istiqrazdır. O, dövlətin qazancından pay, büdcədəki profisitdə payı təsdiqləyən qiymətli kağız kimi dövriyyəyə buraxıla bilər.

**2. Bank səviyyəsi.** Azərbaycan Banklar Assosiasiyası banklara bu sahədə dəstək verə bilər. Onlar da islam şöbələri yarada və pulun qarışmaması prinsipinin gözlənilməsini öyrənə, tətbiq edə bilər.

**3. Əhali səviyyəsi.** Bu səviyyədə iş apararkən yaponları misal göstərmək olar. Belə bir yapon məntiqi var. Yaponlar fikirləşir ki, banka 0 faizlə (faizsiz) pul qoysun ki, onu sahibkar aşağı faizlə bankdan götürsün, istehsal müəssisəsi yaratsın və əmanətçi də həmin müəssisədə çalışsın. Çünki yapon düşünür ki, sahibkar pulu bankdan yüksək faizlə götürsə, bu pula istehsal qura bilməyəcək və aşağı kredit faizli ölkədən malları idxalı ilə məşğul olacaq. Bu həm də ictimai maraqla şəxsi marağın dostluğunun təcəssümüdür. Deməli, tək Allahı tanımayan yapon tək Allahın qaydasına çox müsəlmandan daha sadiqdir. Bəlkə bu da Gündoğar ölkə sakinlərinin yüksək rifahının səbəblərindən biridir?

Ümumiləşdirərək deyim ki, əlbəttə, birdən-birə əsrlərlə formalaşmış faizli bankçılığı islam prinsiplərinə gətirmək olmaz. Bu təkamül tələb edən prosesdir. Lakin daha böyük inadla işi sürətləndirmək zamanın çoxdankı tələbi və müqəddəs borcumuzdur. Sokratdan soruşdular ki, fəlsəfə ona nə öyrədib? Dahi filosof dedi: "Fəlsəfə mənə öyrətdi ki, başqalarının qanundan qorxaraq etmədiklərini mən dərk edərək etmirəm".

Sonda belə bir nəticəyə gəlmək olar ki, İslam bankçılığının Azərbaycanda tətbiqi nəticəsində ilk növbədə iqtisadiyyatın halallaşması baş verəcək,dini baxışlara görə faizli banklara yatırılmayan pullar dövriyyəyə gələcək. Sonra isə trilyonlarla dollara sahib İslam bankları və fondlarının Azərbaycan iqtisadiyyatının inkişafına fəal cəlbi olacaq.

Azərbaycanda İslam iqtisadiyyatı elmi istiqamətinin banisi, i.e.d., professor Məhəmmədhəsən Meybullayev öz əsərlərində görkəmli islam alimlərinin adını çəkir. Əbu Yusif, İbn Rəşt, müasir iqtisadiyyatın atası sayılan və sosial birliyi sivilizasiyaların inkişafı - tənəzzülünün əsası kimi qiymətləndirən İbn Xəldun və başqaları sistemin formalaşmasında əvəzsiz xidmətlərə sahibdir. Amma mən düşünürəm ki, bu alimlərin başında Həzrəti Məhəmməd dayanır. Ona görə Peyğəmbərə olan ehtiramımı ifadə etmək üçün yazdığım bir bəndlə fikirlərimi tamamlayıram:

*Tarix peyğəmbəri çoxlu görübdür,*
*Hərəyçün inamdan heykəl hörübdür.*
*Fəqət Məhəmmədə çatanı olmaz,*
*Onun yolun tutsaq şeytan ölübdür!*

**Elşad Səmədzadə, i.f.d,**
**ADİU-nun dosenti,**
**Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini,**
**Beynəlxalq Menecment Akademiyasının müxbir üzvü**




# Bakı UEFA Avropa Liqasının final matçına ev sahibliyi etdi




UEFA Avropa Liqasının final matçının Bakı Olimpiya Stadionunda keçirilməsi ilə bağlı qərar son illər sürətlə inkişaf edən Azərbaycan idmanının qazandığı növbəti uğurdur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır.

Mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilən UEFA Avropa Liqasının final qarşılaşmasının qalibi "Çelsi" komandası olub.

Londonun "Arsenal" və "Çelsi" komandaları arasında baş tutan maraqlı final oyununa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də baxıblar.

Oyunu italiyalı referi Canluka Rokki idarə edib. Avropa Liqası tarixində ilk dəfə bu oyunda videonəzarət (VAR) sistemindən istifadə olunub.

Mərasimin ən yadda qalan hissəsi Conas Blunun bənzərsiz ifasının sədaları altında "Çelsi" və "Arsenal" komandalarının nəhəng formalarının arenaya gətirilməsi olmuşdur. Açılış mərasimindən sonra turnirin kuboku arenaya gətirilmişdir. Daha sonra "Arsenal" və "Çelsi" komandalarının futbolçuları meydana çıxıblar.

Maraqlı idman mübarizəsi şəraitində keçən qarşılaşma Çelsinin qələbəsi ilə (4:1) başa çatıb.

Bununla da "Çelsi" komandası UEFA Avropa Liqasının 2018-2019-cu illər mövsümünün qalibi olmuşdur.

Bununla da "Çelsi" 2012-2013-cü il mövsümündən sonra ikinci dəfə UEFA Avropa Liqasının qalibi adını qazanmışdır. "Arsenal" isə ikinci dəfə UEFA Avropa Liqasının finalında məğlub olmuşdur.

Daha bir maraqlı məqam ondan ibarətdir ki, final qarşılaşması ilə əlaqədar tamaşaçı tutumu 70 min yerə çatdırılan Bakı Olimpiya Stadionu bu baxımdan UEFA Avropa Liqasının tarixində 20 illik rekordu yeniləyib. Bakı Olimpiya Stadionu bu göstərici üzrə UEFA Avropa Liqasının final matçına ev sahibliyi edən stadionlar arasında ən çox tamaşaçı tutumuna malik arena olub. Belə ki, 1999-cu ildə "Parma" və "Marsel" komandaları Moskvanın 62 min tamaşaçı tutumuna malik "Lujniki" stadionunda üz-üzə gəliblər.

Xatırladaq ki, 2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi futbol üzrə UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final oyununun 2019-cu il mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edib. UEFA Avropa Liqasının final qarşılaşmasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan paytaxtında silsilə tədbirlər təşkil olunub. Belə ki, UEFA Avropa Liqasının zəngin irsinin təbliği məqsədilə Bakıda ötən il dekabrın 22-dən bu il yanvarın 7-dək "UEFA Avropa Liqası Muzeyi" fəaliyyət göstərib.






# Orucun təməli və hədəfi

Orucun təməli və hədəfi insanları təqvaya çağırmaqdır. Allah Qurani-Kərimdə oruc və təqva haqqında belə demişdir: *"Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz" (Bəqərə surəsi, 183-cü ayə).* Təqva dedikdə tək libas nəzərdə tutulmur, insanın gözü, qulağı, nəfsi, qəlbi təqvalı olmalıdır. *"Bax belə! Hər kim Allahın ayinlərinə hörmət etsə, (bilsin ki,) bu, qəlblərin təqvasındandır". (Həcc surəsi, 32-ci ayə).* Oruc tutan adam öz nəfsinin zəncirini qıraraq, Allahın ipinə sarılır və bununla da ictimai bir varlıq olduğunu hiss edir. Oruc öz nəfsinə sahib çıxmaq, aclıq və susuzluğun törətdiyi çətinliyə dözmək tərbiyəsini verir. Nəfs isə insanı eqoistləşdirib təkəbbürlü edərək təkliyə aparır. Lakin elə insanlar da var ki, oruc tutur, aclığa və susuzluğa səbir edir, amma söyüş söyür, yalan danışır, lənət edir, göstəriş üçün namaz qılır, gündüzləri oruc tutur, amma təklikdə öz şeytanı ilə qalır. *"Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!", – deyirlər, öz şeytanları ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz (möminlərə) ancaq istehza edirik!", – deyirlər (Bəqərə surəsi, 14-cü ayə).* Bəziləri deyər: "Namaz qılan, oruc tutanam, məndə yalan, fitnə-fəsad olmaz". Onda belə çıxır ki, insan namaz qılmasa, oruc tutmasa yalan, fitnə-fəsad edə bilər? Bunların hamısı gözdən pərdə asmaqdır. Lakin unutmayaq ki, Allah hər şeyi görən və biləndir. Bəzən biz insanların kiçik saydığı günah Allah dərgahında böyük olar, bəzən böyük saydığımız günah kiçik olar.

İnsanların çox az qismi, bu böyük günahlardan və onların haram olmasından xəbərsizdir. Çünki onları bu əməllərdən çəkindirən və bu haramların cəzasını xəbər verən olmayıb. Lakin ona deyildiyi halda, "bu, günahdır və bunun Allah qarşısında cəzası var", o yenə bilərəkdən davam etsə, bu insanın artıq qəlbi möhürlü, qulağı və gözü bağlıdır. Ona desəndə, deməsən də nə fayda? *"Şübhəsiz ki, sən nə ölülərə (haqqı,) nə də üz çevirib gedən karlara çağırışı eşitdirə bilməzsən" (Rum surəsi, 52-ci ayə).*

Oruc bir ibadətdir, oruc ibadəti ilə ruzi insanın təkrar qapısından içəri girər. Aclıq çəkən insan yoxsulun, möhtac olanın vəziyyətini başa düşər və qənaətin mənasını daha yaxşı anlayar, israfa çox yol verməz. Allah Rəsulunun "Qənaət bitməyən bir xəzinədir (Beyhaki, Zühd, 2/88)" sözü gərək insanların qulağında sırğa olsun. Nemətin köhnəsinin daha çox qədrini bilən insan, Allaha olan şükrünü artırar. *"Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur" (İsra surəsi, 27-ci ayə).*

**Oruc kimlərə fərzdir?**

Ağıllı, yetkinlik çağına çatmış və oruc tutmasına maneə olacaq bir bəhanəsi olmayan hər müsəlmanın Ramazan ayının orucunu tutması fərzdir (vacibdir).

**Hansı hallarda oruc tutulmaya bilər?**

Səfər əsnasında tutulmayan oruclar, daha sonra qəza edilə bilər. Allah Quranda *"Müəyyən sayda olan günləri (oruc tutmalısınız). Sizlərdən xəstə və ya səfərdə olanlar başqa günlərdə eyni sayda (oruc tutmalıdırlar). Buna taqəti olmayanlar isə (buraxdığı hər günün əvəzinə) bir kasıbı yedirtməklə fidyə verməlidirlər. Kim könüllü olaraq yaxşılıq etsə, bu, onun üçün daha xeyirli olar. Biləsiniz ki, sizə oruc tutmaq daha xeyirlidir" (Bəqərə surəsi, 184-cü ayə), - deyə buyurmuşdur.*

**Çətin işdə işləmək**

Oruc tutduğu təqdirdə sağlamlığına bir zərər gələcəksə, orucunu tutmaya bilər. Məsələn, ağır işlərdə işləmək məcburiyyətində olan şəxslərin oruclu olaraq işlədikləri halda, sağlamlıqları risk altında qalacaqsa, Ramazan ayında tuta bilmədikləri oruclarının uyğun bir zamanda qəzasını tutarlar.

Allah Quranda bu vəziyyəti bir ayəsində belə açıqlayır: *"İnsanlara doğru yolu göstərən, bu yolun və (haqqı batildən) ayırd edənin açıq-aydın dəlilləri olan Quran Ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər (həmin ayı) oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda (oruc tutmalıdır.) Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, (istəyir ki,) siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz (Bəqərə surəsi, 185-ci ayə).*

**Xəstəlik və yaşlılıq**

*"Oruc tutmağa taqəti olmayanlar isə bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər".* Bəqərə surəsinin 184-cü ayəsində bu şəkildə Oruc tutmağa gücü çatmayanların fidyə vermələri Allahın hökmüdür.

İnsan xəstə olduğu halda oruc tutarsa və xəstəliyinin daha da şiddətlənməsi ona narahatlıq verərsə, Ramazan ayında oruc tutmayıb, sağaldıqdan sonra Orucun qəzasını tuta bilər. Lakin ömürünün axırına kimi bu xəstəliklə yaşayacaqsa, o zaman əgər maddi imkanı buna yol verərsə, bir yetimi doyuzdurması müstəhəbdir.

Hamiləlik və uşaq əmizdirmə: Dünyaya sağlam körpə gətirmək baxımından hamilə qadınların qida maddələrinə xüsusi ehtiyacı var. Bu səbəbdən onlar oruc tutmaya bilərlər. Uşağını öz südü ilə bəsləyən qadın, südünün kəsilməsi və uşaqlarının zərər görə biləcəyi vəziyyətlərdə oruc tutmaya bilər.

**Fidyə nədir?**

Bəzi qüsurların işlənməsi halında ödənilən dini-maliyyə öhdəçilikdir. Qocalıq və şəfa ümidi olmayan bir xəstəlik səbəbindən oruc tuta bilməyən kimsə qəza orucunu yerinə yetirə bilmədiyi halda, hər günə qarşılıq bir fidyə ödəyər. *"Oruc tutmağa güc çatdıra bilməyənlər bir kasıb doyumu qədər fidyə ödəyər" (Bəqərə surəsi, 184-cü ayə).*



**Fidyə miqdarı nə qədər olmalıdır?**

Bir yoxsulu doyuracaq qədər fidyə miqdarı buğdadan yarım "sa", arpa, xurma və ya quru üzümdən bir "sa"dır. Bir "sa" 3,333 kiloqrama bərabərdir. Günümüzdə arpanın qiyməti çox olmasa da, quru üzümün, kişmiş və xurmanın dəyərinə görə hesab aparıla bilər. Onu da vurğulamaq lazımdır ki, bir yoxsulu bir gün ərzində doyura biləcək ərzaq və ya nağd pul cəmiyyətimizin sosial-iqtisadi durumu nəzərə alınaraq, ən az miqdarda müəyyən edilməlidir. Bundan çox miqdarda fidyə verilməsi isə şəxsin imkanına və gəlirinə bağlıdır ki, bu mənada o, tam sərbəstdir.

**Oruc kəffarəsi nə deməkdir?**

Ramazan orucunun bəhanəsiz olaraq pozulması vəziyyətində həm kəffarə, həm də pozulan orucun qəza edilməsi lazımdır. Oruc kəffarəsi iki qəməri ay və ya 60 gün ara vermədən oruc tutmaqdır. Buna gücü çatmayan, 60 kasıbı bir gün ya da bir kasıbı 60 gün doyurar.

Allahın əmri və Qurani-Kərimdə qeyd etdiyi qadağalar, əlbəttə ki, biz insanların yaxşılığı üçündür. Allahın əmr etdiyi əməllərdə qullar üçün çox böyük faydalar, qadağan etdiyi əməllərdə isə insana böyük zərər gətirəcək həqiqətlər vardır. Ramazan ayı ümidsiz insanların bağışlanma ümidlərini cücərdən bir aydır. Oruc səbri, gələcək çətinliklərə qarşı dayanıqlı olmağı öyrədən bir müəllimdir. Allah tutulan oruclarınızı və pak niyyətlərinizi qəbul etsin. İnşaAllah!

*N. Lamiyə*

# Müxtəlif dinlərdə oruc

**Uca Allah Quran ayəsində oruc tutmaqla bağlı belə buyurur: *"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, siz pis əməllərdən çəkinəsiniz!" ("Bəqərə" surəsi, 183-cü ayə).***

**İSLAMDA ORUC**

İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və ən müqəddəs ay hesab edilir. Onu məcazi mənada "on bir ayın sultanı" da adlandırırlar. Orucluq hicrinin ikinci ilində Məhəmməd peyğəmbər tərəfindən Mədinədə bu məqsəd üçün Ramazan ayı təyin olunandan öz tarixini başlayır. Məhz Ramazan ayının axırıncı on gecələrinin birində Quran nazil edilmişdir. Deyilənə görə bu, həmin ayın ya 22-dən 23-nə, ya da 26-dan 27-nə keçən gecə baş vermişdir. Bu gecə **"leylət al-Qadr"** – qüdrətli, əzəmətli gecə adlanır. Quranda bu gecə haqda belə yazılır: **"Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır!" (Qədr surəsi, 3-5-ci ayələr)**



**YƏHUDİLİKDƏ ORUC**

Yəhudilik Hz.Musa tərəfindən əmr edilən "Kəffarə" orucunu əsas qəbul edir. Yəhudilər, xüsusilə də Yom Kippurdan əvvəl oruc tuturlar. "Kəffarə" adlandırılan oruc məcburidir. Yəhudilikdə oruc üfüqün çıxmasından ilk ulduzun görünməsinə kimi davam edir. Kəffarə günü orucu ilə avqust ayının 9-na düşən oruclar bir axşamdan sabahkı axşama kimi davam edir. Yəhudilərin müqəddəs kitablarında oruc nəfslərin alçaldılması, ona əzab verilməsi kimi ifadə edir ("Levililər", XVI/29-31; XXIV/26-28; "Sayılar", XXIX/7).

Avqust ayının ilk doqquz günü ilə iyul ayının 17-si və avqustun 10-u arasındakı bəzi günlər ancaq ət yemək və içki içmək qadağan olunur.



**XRİSTİANLIQDA ORUC**

Xristianlıqda oruc müxtəlif dəyişikliklərə məruz qalıb. Hz.İsanın dövründə və xristianlığın ilk dövrlərində oruc çox təqdir edilən bir ibadət idi. Yuxarıda "Bəqərə" surəsində qeyd edilən ayədə İslamdan əvvəlki ümmətlərə də orucun fərz edildiyi bildirilir. Ancaq bu orucun mahiyyəti və şərtləri haqqında dəqiq məlumata malik deyilik. Hz.İsanın orucla bağlı hökmlər qoymadığını, özündən sonra bəzi əsaslar bildirdiyi və bu məsələdə kilsəyə sərbəstlik verdiyi qeyd edilir.

Xristianlıqda orucun müxtəlif ölkələrə görə dəyişən hökmləri və ənənələri var. Bəziləri yumurta və meyvə yeməkdən kənarlaşır, bəziləri ancaq quru çörək yeyir, bəziləri də bunların heç birini yemir. Bəziləri də ancaq göyərti yeyərək oruc tuturlar.



**HİNDUİZMDƏ ORUC**

Hinduizmdə nəfsin təmizliyi üçün ilin müəyyən günlərində və bayramlarda oruc tutulur. Hinduizmin mənsublarının dua və ibadətlə keçirdikləri xüsusi günləri var. Bu günlərdə əksər insanlar yemək yeməz, bütün gecə müqəddəs kitabını oxuyaraq və tanrını düşünərək vaxtlarını keçirərlər. Onlarda oruc çox qida qəbul etməmək tərzindədir. Bu, bir növ pəhrizdir və bu bütün hindust qruplarda geniş yayılıb. Bəzi günlərdə ancaq qadınlar oruc tutur və "Tanrının qadınlıq sifətlərinin təcəllahı" olan tanrıçaya dua edirlər. Bu günlərə xüsusi əhəmiyyət verdikləri üçün "Əhd" adlandırırlar. Bu günlər nəfslərini təmizləməyə ayrılmış günlərdir. Məqsədləri də mənəvi bir qida ilə ruhu qidalandırmaqdır.

Quran bu ümmətlərin hansı ümmətlər olduğunu dəqiq şəkildə qeyd etməmişdir. Hal-hazırda yəhudi və xristianların əllərində olan Tövrat və İncilə nəzər salsaq, burada bu iki dinə mənsub olan insanlara orucun vacib edilmiş olduğu görünmür. Sadəcə bu iki kitabda bəzi ifadələr vardır ki, orucu tərifləyir və onu əzəmətli sayır. Hazırda yəhudi və xristianlar ildə bir neçə gün müxtəlif formalarda oruc tuturlar: ya ət yeməkdən, ya süd içməkdən, ya da mütləq şəkildə yeyib-içməkdən özlərini çəkindirirlər.

Qurani-Kərimdə Zəkəriyyənin, Məryəmin oruc tutmasından söz açılır. Qurandan sair yerlərdə dinsiz qövmlərin də oruc tutması qeyd olunmuşdur. Belə ki, qədim misirlilər, yunanlar, rumlular, hətta bütpərəst hindlilər belə, özünəməxsus oruc tutmuşlar. Beləliklə düşünmək olar ki, Adəm övladının fitrəti oruc tutmağa hökm vermişdir.



Çünki digər canlılardan fərqli olaraq, insanlar öz duyğularına məhdudiyyət qoymur, yaxşılıq və pisliklərin sərhədi bilinmir. Bu dünya insanlar üçün imtahan dünyasıdır. Hislərin mənəvi tərəqqi və ya tənəzzül etməsi üçün iradə azadlığı verilmişdir. Mahiyyət etibarilə insan mələklərdən üstün məqama yüksələ də bilər, heyvanlardan aşağı səviyyəyə də yuvarlana bilər.

Bu mənada İslami əsaslar iradəyə məhdudiyyət qoyaraq qabiliyyətlərin müsbət istiqamətdə inkişaf etdirilməsini məqsəd seçmişdir. Nəfsin və pis niyyətlərin bu şəkildə müəyyən çərçivəyə salınması labüddür.

***"Allah Mələklərə təkcə ağıl verib, şəhvət hissi verməyib. Heyvanlarda isə şəhvət var, ağıl yoxdu. Lakin insana həm ağıl, həm də şəhvət hissi verilib. İnsan öz şəhvətini ağlına tabe etsə, mələklərdən yüksəyə qalxar. Yox əgər ağlını öz istəklərinə tabe etsə, heyvanlardan da alçaq səviyyəyə enər".***

***Hz.ƏLİ***

**Hazırladı: L.Nəbiyeva**

# Şeyx həzrətlərinin çoxşaxəli fəaliyyəti ölkəmizi gücləndirir



*İslam dövlətlərinin görkəmli nümayəndəsi, İslam ənənələrinin, milli-mənəvi dəyərlərimizin qorunmasına öz layiqli töhfələrini verən, başçılıq etdiyi strukturun inkişafı üçün yorulmaz və məhsuldar fəaliyyət göstərən görkəmli ziyalı, çox dəyərli və qayğıkeş Vətən oğlu Hacı Allahşükür Paşazadənin 70 yaşı tamam olur.*

Şeyx ağsaqqal deməkdir,başçı deməkdir. Şeyxülislam – İslamın Şeyxi, seçilmişlərin seçilmişidir. Azərbaycan tarixində Şeyx Cüneyd, Şeyx Üveys, Şeyx Cəbrayıl, Şeyx Səfiəddin, Şeyx Heydər, Şeyx Bəhaüddin, Şeyx İbrahim kimi görkəmli şəxslər olmuşdur. Azərbaycanda "ağsaqqal" adı çox-çox qədimlərdən yüksək tutulub, ağsaqqala həmişə sonsuz ehtiram və hörmət olub. Ağsaqqal sözü həmişə haqq yolunda baş məsləhətçi olub. Ağsaqqal sözü, ağsaqqal məsləhəti olub ki, dinsizləri də imana gətirib. Sonsuz hörmət sahibi olan Şeyxülislam Hacı Allahşükür Paşazadə də belə ağsaqqallardandır.

Hacı Allahşükürün Şeyxülislam seçilməsindən düz 40 il keçir. Onu illərdir ki, tanıyıram. İlk növbədə, bir din xadimi, tarixçi, ilahiyyatçı alim, nəhayət, bir insan kimi. Allahşükür Paşazadə bütov adamdır, az danışır, amma hər dediyi sözün sahibidir. Müdrik insandır, öyrənən və öyrədəndir. Sözün əsl mənasında, Allah adamıdır. Bütün qəlbi ilə İslam dininə bağlı adamdır. Şeyx ensiklopedik məlumata malikdir. Dərin məntiqi var, hazırcavabdır. Son dərəcə sadədir. Sanki, bir baxışla insanın ürəyini oxuyur.

Yəqin ki, əfsanələşmiş pak hisslər oyadan, eşidənləri müqəddəsliyə çağıran bu dərin köklər Allahşükür Paşazadənin ömür yolunun səmtini də müəyyən etmişdir. O, paklığa aparan yolu seçmişdir. Buxarada, Daşkənddə dini təhsil almış, ərəb dilini öyrənmiş, İslam dinindən nurlanmışdır.Elə bu islami nur Allahşükür Paşazadəni həm ölkə içərisində, həm də onun hüdudlarından çox-çox uzaqlarda şöhrətləndirmiş, 1980-ci ildə o Qafqaz Müsəlmanları İdarəsinin sədri – Şeyxülislam seçilmişdir.

Azərbaycanda əvvəllər də hörmət və izzət sahibi din xadimləri olmuşdur. Onlardan Axund Mirzə Əbu Turab Axundzadəni, Mir Məhəmməd Kərim Mirzəcəfərzadəni, Axund Molla Ruhullanı və Axund Molla Ağa Əlizadəni xatırlamamaq mümkün deyil. Xalq yazıçısı Qılman Musayev yazır ki, Axund Mirzə Əbu Turab dini təhsilini Mədinə şəhərində almışdır. Axund Mir Məhəmməd Kərim Mircəfərzadə Qurani-Kərimin üç cildlik təfsirini vermişdir. Axund Molla Ruhulla Məmmədzadə Qəzvində oxumuşdur. Axund Molla Ağa Əlizadə isə Nəcəfül-əşrəf universitetini bitirmişdir. Axund Molla Ağa Əlizadə iki dəfə Şeyxülislam seçilmişdir. Qılman müəllim razılıqla yazır ki, bu ləyaqətli ruhani rəhbərlərin Azərbaycan xalqının mənəvi kamilliyində xidmətləri böyükdür.

Hacı Allahşükür Paşazadə on ikinci Şeyxülislamdır. On iki – müqəddəs rəqəmdir. On iki – ayların sayıdır, on iki – saat rəqəmlərinin sayıdır. Nəhayət, on iki – imamların sayıdır.

Şeyxülislam Allahşükür Paşazadə dünya şöhrəti qazanmış din xadimlərimizdəndir. O öz savadı, dünyagörüşü, insansevərliyi, tolerant siyasəti ilə hər yerdə sonsuz rəğbətlə qarşılanır.

Şəxsən mən Şeyximizi ən cəsarətli, haqq işi uğrunda hər cür fədakarlığa hazır bir insan kimi tanıyıram.

**Hələ 1984-cü ildə mən Mərkəzi Komitənin şöbə müdiri, Azərbaycan SSR nümayəndə heyətinin rəhbəri kimi, Şeyxülislam Allahşükür Paşazadə isə SSRİ nümayəndə heyətinin tərkibində *"Azərbaycan mədəniyyəti günləri"*ndə iştirak etmək üçün Fransaya gəlmişdik. Strasburq (Fransa) Universitetində keçirilən kollokviumda iştirak edirdik. Həmin kollokviumda mən bir vaxtlar Bakıdan köçüb getmiş mühacir S.Afanasyansın məruzəsindən sonra çıxış etməli oldum. O, ağına-bozuna baxmadan DQMV-də və Naxçıvan Muxtar Respublikasında demoqrafik vəziyyəti kobudcasına, təhrif olunmuş şəkildə təqdim edir, sübut etməyə çalışırdı ki, Azərbaycan dövlətinin siyasəti erməniləri bu respublikadan sıxışdırmağa yönəldilib.** Mənim söylədiyim dəlillər və faktlar auditoriyanın reaksiyasına və kollokviumda iştirak edən həmyerlilərimizin (o cümlədən, yazıçı Anarın, professorlar Yaqub Məmmədovun, Teymur Vəliyevin, Həmid Əliyevin, Şeyxülislam Allahşükür Paşazadənin) təəssüratına görə o qədər inandırıcı idi ki, pərt olmuş S.Afanasyans özündə cəsarət tapıb, tam informasiyaya malik olmadığını bəhanə gətirərək bizdən üzr istəməli oldu...

Məlumdur ki Azərbaycanın istiqlal yolu çox çətin və qanlı-qadalı olmuşdur. "20 yanvar" Azərbaycan təqviminə matəm günü kimi düşmüşdür.

**1990-cı ilin 20 yanvar gecəsi azğın Qorbaçovdan əmr alan Sovet ordusu hissələri silahsız xalqımıza divan tutanda, bu dəhşətli faciə ilə əlaqədar ilk etiraz səsini ucaldanlardan biri ŞeyxülislamHacı Allahşükür Paşazadə oldu. Əli qana batmış M.Qorbaçova ünvanladığı qəzəbli məktubunda Şeyxülislamyazmışdı: *"Azərbaycan xalqı ilə silah gücü ilə danışmaq olmaz"*. Böyük vətəndaş cəsarəti ilə deyilmiş bu öldürücü kəlam o vaxt geniş əks-səda vermişdi...**

Həqiqətdə də, Azərbaycan xalqı 20 Yanvar faciəsindən sınmadı. Xalqın qəzəbi daha da alovlandı, gecə güllələbaran edilən xalq səhər küçələri bağlamış zəhmli tanklardan belə çəkinmədi. O gecə şəhid olmuşların dəfni görünməmiş bir etiraz nümayişinə çevrildi. Azadlıq meydanına yığılanların sayı milyonu ötmüşdü. Millət ağsaqqalı ŞeyxülislamAllahşükür Paşazadə dəfn izdihamının önündə gedirdi.

Yenə təkrar edirəm, bu, qeyri-adi bir dəfn idi. Bütün gəmilər səs-səsə vermişdi. Bütün şəhərin qəzəbi, nifrəti bir yumruq kimi düyünlənmişdi. Təsəvvür etmək çətindir ki, Sovetlərin hansısa bir respublikasında xalq qəzəbinin belə güclü nümayişi ola bilərdi. Azadlıq meydanından başlayan qəm karvanı Dağüstü parkadək uzanırdı. Bütün küçələr və meydanlar, hətta ağaclar da qırmızı qərənfilə bürünmüşdü. Allah yolunda, haqq yolunda şəhid olanlar, həqiqətən də, ölümsüzlüyə qovuşurmuş...

Heç bir il də keçmədi ki, M.Qorbaçov rüsvayçılıqla istefaya göndərildi. 1991-ci ilin 18 oktyabrında Ali Sovet Azərbaycan Respublikasının müstəqillik aktını təntənə ilə qeyd etdi. Həmin tarixi gündə hamı kimi Şeyx ilə mən də bir-birimizi təbrik etmişik.

**Şeyxülislam Hacı Allahşükür Paşazadə yüksək mədəniyyət sahibidir. Planetimizin çox ölkəsində dini görüşlər arasında dözümsüzlüyün hökm sürdüyü, qonşu Ermənistanda dini düşmənçiliyin təbliğ edildiyi bir vaxtda məhz Şeyxülislam Hacı Allahşükür Paşazadənin titanik fəaliyyəti Azərbaycanda əsl dini qardaşlıq ab-havası yaranmasında müstəsna rol oynamışdı.**

Ateizmin cövlan etdiyi sovet quruluşunda Moskvanın təzyiqi ilə din xadimlərinin nələr çəkdiyi çoxlarına bəllidir. Hər bir ideoloji müşavirədə din üzərinə hücumlar təşkil edilirdi. Otuz yeddinci il qurbanlarının siyahısı din xadimlərinin adları ilə də zəngin idi. Elə şərait yaranmışdı ki, hüzn yerinə və qəbir üstünə molla da çağırmaq olmurdu. Pir üstündə maşınların nömrələri yazılırdı. Savadlı mollaların sayı, demək olar ki, sıfıra enmişdi. İslam dünyasına edilən təzyiqləri yalnız ulu öndər Heydər Əliyevlə və sonradan onun davamçısı, ölkə başçısı İlham Əliyevlə birləşərək dəf etmək mümkün oldu. Mənəviyyatın və tarixin yadigarı olan məscidlər, türbələr və dünya övliya ocaqları təmir və bərpa edildi, yeni məscidlər, mədrəsələr açıldı. Azərbaycan üçün ali təhsilli dini kadrlar hazırlayan Bakı İslam Universiteti möhtərəm şeyximizin təşəbbüsü və tükənməz fəaliyyəti sayəsində yaradılmışdır.

Belə bir vaxtda Qafqaz Müsəlmanları İdarəsinin sədri seçilən Allahşükür Paşazadənin çoxsahəli fəaliyyəti üçün geniş meydan açıldı. O, dini-mənəvi dəyərlərin təbliğ və təlimi üçün hər şeyi yenidən, amma köklü dur. Başladı. Din sahəsində əsaslı maariflənmə işləri aparıldı.

1997-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Elmi-Dini Şuranın təşkil edilməsi də Hacı Allahşükür Paşazadənin adı ilə bağlıdır. Qafqaz Müsəlmanları İdarəsi şeyximizin səmərəli təşkilatçılıq fəaliyyəti nəticəsində geniş təsir dairəsinə malik və İslam dünyasında böyük hörmət sahibi olan bir təşkilata çevrilmişdir.

**Hacı Allahşükür Paşazadə elmi qəlbən sevən alim, ziyalı, dini-mənəvi dəyərləri təbliğ edən qiymətli əsərlərin müəllifidir. Qurani-Kərimin tərcüməsi çox çətin və məsuliyyətli işdir. Məhz Şeyxülislam Hacı Allahşükür Paşazadənin təşəbbüsü və dəstəyi sayəsində Qurani-Kərim Azərbaycan dilinə mükəmməl tərcümə edilərək xalqın istifadəsinə verilmişdir. Heç şübhəsiz, bu mübarək iş gələcəkdə də davam etdiriləcəkdir.**

Elmə və dinə bağlılığının nəticəsidir ki, Şeyxülislam HacıAllahşükür Paşazadə uzun müddət gərgin əmək sərf etdikdən sonra - 1991-ci ildə Bakı İslam İnstitutunun açılmasına nail olmuşdur. Bu ali təhsil ocağı 1997-ci ildə universitet statusu almışdır.

Yetmiş illik sovet dövrünün ateist tərbiyəsi, hədə-qorxu islam dininə az ziyan vurmadı, 40 il elə də uzun vaxt deyil. Və nəzərə alaq ki, dağıtmaq asan, qurmaqsa çətindir. İblis əməli ilə dağılanı qurmaq çox-çox müşküldür. Məhz Şeyxülislam Hacı Allahşükür Paşazadənin uzaqgörənliyi, müdrikliyi sayəsindədir ki, bu gün, xüsusən, gənclər islam dininə böyük məhəbbətlə bağlanmağa başlamışlar. Hazırda onu bütün İslam dünyası tanıyır və rəğbət bəsləyir. Şeyxülislam regionda sülhün qorunub saxlanması üçün bu gün də var-qüvvəsi ilə çalışır. Onun dövlət başçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə yaxın dostluğu da regionda bərqərar olmuş sülhün və sabitliyin qorunmasına xidmət edir.

**İslam dininə bağlanmaq isə mənəvi köklərə bağlanmaq deməkdir. İslam dininə bağlanmaq əsl vətənpərvərlik məktəbidir. Şeyxülislam Hacı Allahşükür Paşazadə bu yolun örnək olan görkəmli nümayəndəsidir.**

**Ən yaxşı alim öyrənib, öyrədən insandır. Möhtərəm Şeyximiz məhz belə nəcib insandır.**

***Mən Hacı Allahşükür Paşazadəyə möhkəm cansağlığı, sevinc dolu illər, gərgin və səmərəli fəaliyyətində uğurlar diləyirəm. Onun Şeyxülislam seçilməsinin 40 illiyi münasibətilə bütün xalqımızı ürəkdən təbrik edirəm.***

**Akademik
Ziyad Səmədzadə**



# Təhsil sahəsində əməkdaşlıq dövlətlərarası münasibətlərin inkişafında mühüm yer tutur

*24-25 may tarixlərində Həştərxanda "Xəzər rəqəmsal iqtisadiyyat dövründə" Beynəlxalq elmi-praktik forum keçirilmişdir. Forumda Azərbaycan Dövlət İqtisad Universitetinin – UNEC-in professoru, Elmi fəaliyyətin təşkili və idarə olunması departamentinin direktoru Zahid Fərrux oğlu Məmmədov da iştirak etmişdir. Biz də "İqtisadiyyat" qəzeti olaraq Zahid müəllimlə görüşüb, təəssüratlarını bölüşdük, forum haqqında, onun əsas mövzusu, müzakirə olunan məsələlərlə bağlı söhbət etdik. Həmin müsahibəni oxucularımıza təqdim edirik.*



**- Zahid müəllim, bildiyimiz kimi, bu yaxınlarda Həştərxanda 2 gün davam edən forumda iştirak etdiniz. İstərdik həmin forum haqqında oxucularımızı da məlumatlandırasınız, təəssüratlarınızı bölüşəsiniz.**

- Bəli, biz bu yaxınlarda Həştərxanda olduq və orada bizi çox yüksək səviyyədə qarşıladılar. Moskva Beynəlxalq Hüquq İnstitutunun və Həştərxan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən tədbirdə əsas mövzu rəqəmsal iqtisadiyyatda Xəzər dənizinin rolu ilə əlaqədar idi. Orada Həştərxanın dövlət rəsmiləri, Azərbaycan başda olmaqla Rusiya, Qazaxıstan, Türkmənistan və İran – 5 ölkə, həmçinin Xəzərə maraq göstərən və Xəzər mövzusunda tədqiqat işləri həyata keçirən elm xadimləri iştirak edirdilər. Forumda xüsusi olaraq rəqəmsal iqtisadiyyatda təhsil, elm, biznes, Xəzəryanı ölkələrin rəqəmsal iqtisadiyyatı çərçivəsində trans-sərhəd əlaqələri kimi məsələlər əsas müzakirə mövzusu idi.

Forumda mənimlə bərabər UNEC-in İKT və rəqəmsal iqtisadiyyat kafedrasının müdiri, akademik Əli Abbasov da iştirak edirdi. O, "Bir Kəmər Bir Yol" təşəbbüsü üzrə rəqəmsal iqtisadiyyatın inkişafı və perspektivləri mövzusunda plenar iclasda çıxış etdi və Azərbaycanda rəqəmsal iqtisadiyyatın sürətli inkişafından, ölkədə və regionda rəqəmsal transformasiya prosesinin və bu istiqamətdə elmi-texniki tədqiqatların aparılmasında Azərbaycanın rəqəmsal potensialından danışdı. Onun plenar iclasda məruzəsi forum iştirakçılarının ciddi marağına səbəb oldu.

Tədbirdən öncə isə Həştərxan Dövlət Universitetinin rektoru Konstantin Markelovla da bizim görüşümüz oldu. Biz ona bəzi təkliflərimizi bildirdik və bu təkliflər çox böyük razılıqla qarşılandı.

**- Təkliflər əsas olaraq nədən ibarət idi?**

- Bizim əsas təklifimiz Xəzəryanı ölkələrin iqtisadiyyatı mövzusunda jurnalın nəşri ilə əlaqədar idi. Bu təklif UNEC-in rektoru Ədalət Muradov tərəfindən irəli sürülmüşdü və Konstantin Markelov tərəfindən də dəstəkləndi. O, bunun çox gözəl bir təklif olduğunu qeyd etdi. Hətta jurnal barədə təklifi hörmətli Markelov K.A. plenar iclasda da səsləndirdi və qeyd olundu ki, jurnalın beynəlxalq elmimetrik bazalara daxil olması ilə bağlı da ciddi işlər görüləcəkdir. Onlar bizə çox ciddi dəstək verəcəklərini də bildirdilər. Çünki Xəzəryanı ölkələrin iqtisadiyyatı ilə əlaqədar ixtisaslaşmış jurnal tapmaq bir qədər çətindir. Burada Xəzərlə əlaqədar bütün məsələlər öz əksini tapacaqdır.

Digər bir təklif isə növbəti forumun Azərbaycanda keçirilməsi ilə əlaqədar idi. Bu təklifdə UNEC rektoru Ədalət müəllim tərəfindən irəli sürülmüşdü. Mən bununla əlaqədar Astraxan-24 televiziyasında da çıxış etdim, fikirlərimi geniş şəkildə bildirdim.

**- Qeyd etdiyiniz jurnalın nəşri, təşkilati işləri nə zamana planlaşdırılır və əsasən hansı dillərdə nəşr olunması nəzərdə tutulur?**

- Jurnalla əlaqədar müvafiq texniki-təşkilati işlərə yaxın zamanlarda başlanılacaq. Hazırda biz bununla bağlı Elmi Şuranın təsdiqini gözləyirik. Şuranın təsdiqindən sonra isə qısa müddətdə redaksiya heyəti təşkil olunacaq. Redaksiya heyətinə İtaliyadan alimlərin də cəlb olunması nəzərdə tutulur. Jurnalla bağlı Clarivate Analytics şirkəti ilə də müvafiq danışıqlar aparılır (14 iyul 2017-ci il tarixində "Universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modeli" mövzusunda UNEC-də keçirilən beynəlxalq elmi-praktik konfrans çərçivəsində).

Jurnalın nəşri 3 dildə nəzərdə tutulur: Azərbaycan, rus və ingilis. Jurnalın əsas təsisçisi UNEC olduğundan Azərbaycan dili mütləq şəkildə jurnalda öz əksini tapacaq. Lakin Xəzəryanı ölkələr dedikdə, Qazaxıstan, Türkmənistan və İranın da buraya daxil olduğunu nəzərə alsaq, türk dili də ora əlavə oluna bilər. Çünki bu ölkələrdə türkdilli çoxsaylı tədqiqatçılar var. Bu məsələlər ətraflı müzakirə olunacaq. Qeyd etdiyim əsas 3, yaxud 4 dildən istifadə ediləcək. Mən inanıram ki, yaxın müddətdə jurnal öz sözünü deyəcək. Arzumuz odur ki, bu jurnal iş adamlarına, elm xadimlərinə, hökumət nümayəndələrinə gələcək fəaliyyətlərində köməkçi olsun, istiqamət verə bilsin.

**- Bayaq qeyd etdiniz ki, növbəti forumun ölkəmizdə keçirilməsi təklif olundu və dəstəkləndi. İstərdik bu barədə bir qədər məlumat verəsiniz.**

- Bəli. Biz artıq növbəti forumun Azərbaycanda keçirilməsinə hazırlaşırıq. Hətta biz yalnız Xəzəryanı deyil, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına daxil olan ölkələri də bura daxil etməyi düşünürük. Forumun növbəti ilin may ayında ölkəmizdə keçirilməsi planlaşdırılır. Xəzəryanı ölkələrdə fəaliyyət göstərən şirkətlər də bu işdə bizə dəstək göstərəcəklər. Bu forum həm biznes fəaliyyətinə, həm də elmi-tədqiqatlara çox kömək edəcək. Onu da qeyd edim ki, Həştərxan Dövlət Universitetinin Xəzərlə bağlı tədqiqat işləri sahəsində 6-ya yaxın mərkəzi mövcuddur. Orada çox güclü tədqiqatçılar var, o cümlədən ADU-nun professoru, Xəzər mövzusunda nüfuzlu tədqiqatçı Usmanov R.X. bizimlə əməkdaşlıq edəcək. İnanıram ki, bizdə də bu sahədə çoxsaylı elmi-tədqiqatlara imza atılacaq.

**- Təbii ki, bu sahədə birgə elmi-tədqiqatların aparılması hər iki ölkə üçün mühüm əhəmiyyət daşıyan məsələlərdəndir. Bəs, bu məsələ ilə bağlı forumda hansısa təkliflər, yaxud fikirlər səsləndirildimi?**

- Əlbəttə. İlk olaraq qeyd edim ki, Həştərxanda Azərbaycana qarşı fikirlər çox yüksəkdir. Orada Azərbaycan biznesi çox yüksək səviyyədə inkişaf edib. Azərbaycan və Həştərxan arasında böyük müqavilələrə əsaslanan xüsusi əlaqələr mövcuddur. Xüsusilə cənab Prezident İlham Əliyevin Həştərxan Dövlət Universitetinin fəxri professoru olması ölkəmizə qarşı formalaşan müsbət fikirlərin əsasında dayanır. Bu, bizim üçün də böyük sevinc və fəxrdir. Prezident İlham Əliyevin bu sahədə fəaliyyəti də forumda xüsusi olaraq vurğulandı.

Onu da qeyd edim ki, Həştərxan Dövlət Universitetində 500-dən çox azərbaycanlı oxuyur, azərbaycanlıların orada böyük fəaliyyəti var. Xüsusilə Həştərxanda Heydər Əliyev Fondunun fəaliyyəti təqdirəlayiqdir. Fond tərəfindən burada məktəb və bağça tikilib istifadəyə verilib. Orada Azərbaycan dili üzrə tədqiqat mərkəzi də fəaliyyət göstərir. Sevindirici haldır ki, Həştərxanda Nəsiminin 650 illiyinə həsr olunmuş tədbirin keçirilməsi də nəzərdə tutulmuşdur.

**- Xəzəryanı ölkələr, ümumiyyətlə isə Xəzərlə bağlı UNEC çərçivəsində tədqiqatların hazırkı səviyyəsi ilə bağlı nə deyə bilərsiniz?**

- Tək UNEC yox, ümumiyyətlə ölkəmizdə bu sahədə tədqiqatlar ayrı-ayrılıqda var, lakin bütöv, sistematik şəkildə tədqiqat, demək olar ki, yoxdur. Buna görə də hazırda UNEC-də Xəzər Araşdırmaları Mərkəzinin yaradılması üzərində çalışmalar gedir. Buraya Xəzərlə əlaqədar ciddi tədqiqatçılar dəvət olunacaq, Xəzəryanı ölkələrlə bağlı elmi-tədqiqat işlərinə ciddi imza atılacaqdır.

Bu gün bizim bütün İran, yaxud Qazaxıstan və digər Xəzəryanı ölkələr haqqında çox ciddi məlumatlarımız olmalıdır. Biz bəzən ölkəmizə, inkişafımıza və iqtisadiyyatımıza heç bir təsiri və əlaqəsi olmayan ölkələr haqqında məlumatlar əldə edirik. Təbii ki, bu, heç də pis hal deyil, lakin Xəzəryanı, yaxud ətrafımızda olan ölkələr haqqında tam dolğun məlumata malik deyilik. Xəzərlə bağlı texniki sahədə tədqiqatlar aparılsa da, biz əsas olaraq iqtisadi sahədə tədqiqatların aparılmasına diqqəti yönəltməliyik. Xəzərə yaxın ərazidə yaşamağımıza baxmayaraq, bu sahədə tədqiqatlar istənilən səviyyədə deyil. Xüsusilə Həştərxanda olarkən qarşılaşdığım bir vəziyyət bu məsələ ilə əlaqədar məni daha da məyus etdi. Ona görə düşünürəm ki, bununla bağlı ciddi düşünməyə dəyər.

**- Həştərxanda sizi məyus edən məsələ tam olaraq nə ilə bağlı idi?**

- Həştərxanda biz kitab mağazasında olduq. Mən orada bir çox kitablarla tanış oldum və Xəzərlə bağlı çox ciddi tədqiqatlara rast gəldim. Həqiqətən, çox təəssüfləndim ki, Həştərxanın çox güclü alimlərini tanımamışam və ölkəmizdə də onları tanıyanlar çox azdır, bəlkə də heç yoxdur. Oranın zəngin kitabxanasından bizim yararlanmağımız çox faydalı ola bilər. Həmçinin, biz Həştərxan Dövlət Universitetində UNEC olaraq bizim üçün bir guşənin açılması və kitablarımızın, elmi-tədqiqat işlərimizin tanıdılması ilə bağlı danışdıq. Çox istərdim bu sahədə də qarşılıqlı işlər görülsün, bizim ədəbiyyatlar onların kitabxanalarında və eynilə onların da ədəbiyyatları bizim kitabxanalarda olsun. Biz Həştərxanın və Azərbaycanın Xəzərlə əlaqədar güclü tədqiqatçılarının qarşılıqlı əməkdaşlığını da planlaşdırırıq. Onların səyini birləşdirib, ortaya güclü məhsul çıxarmağı hədəfləyirik.

Orada məni sevindirən məsələ də oldu. Belə ki, Həştərxan Dövlət Universitetinin kitabxanasında akademik Z.Səmədzadənin kitablarına rast gəldim və bu kitablara böyük marağın şahidi oldum.

**- Azərbaycan durmadan inkişaf edən, iqtisadi baxımdan öz sözünü deməyi bacaran və beynəlxalq arenada artıq tanınan bir ölkədir. Bu baxımdan Forum iştirakçılarının ölkəmizlə bağlı təəssüratları barədə nə deyə bilərsiniz?**

- Çox sevindirici haldır ki, orada ölkəmizə qarşı böyük rəğbətin və məhəbbətin şahidi oldum. Təbii ki, burada ilk olaraq cənab prezidentimizin rolunu xüsusi qeyd etməliyik. Onun gərgin səyləri və apardığı düzgün siyasətin nəticəsidir ki, bu gün ölkəmizi tanıyırlar, sevirlər, maraq göstərirlər. Lakin təəssüflə qeyd etməliyəm ki, hələ də ölkəmiz haqqında yetərli bilgiyə sahib olmayan insanlar, ölkələr var. Bu isə yanlış düşüncələrin formalaşması ilə, yaxud yanlış yönləndirilmə ilə nəticələnir. Hətta forumda da mən bunun şahidi oldum. Orada İtaliya universitetlərindən birinin professoru B.Leymsidor mənə Azərbaycanla əlaqədar sual verdi. O, bildirdi ki, Azərbaycanda böyük inkişaf və dəyişikliklərdən bəhs etdiniz, lakin Azərbaycanın iqtisadiyyatının əsasını Rusiyada yaşayan azərbaycanlılar tərəfindən göndərilən vəsaitlər təşkil edir. Təbii ki, bu sual tamamilə onun məlumatsızlığı ilə bağlı idi. Mən isə ona məlumat xarakterli çox əsaslı bir cavab verdim. Bildirdim ki, siz yanılırsınız. Mən ilk növbədə sizi Azərbaycana dəvət edirəm ki, ölkəmizlə yerində tanış olasınız. Qeyd etdim ki, Azərbaycanda qeyri-neft ixracatında birinci sırada İtaliyadır. Problemli ölkə olsaydıq, sizə bu qədər məhsul istehsal etməzdik. Bizim istehsal etdiyimiz məhsullar dünyada rəğbətlə qarşılanır. Unutmayın ki, Azərbaycan bu gün kreditor ölkədir. İnvestisiyalar həyata keçirir və dünyada "Made in Azerbaijan" brendi ilə tanınır. Forumun sonunda həmin şəxs yaxınlaşıb məlumat üçün mənə təşəkkürünü bildirdi və bu barədə məlumatlı olmadığını dedi. Buna görə də düşünürəm ki, Azərbaycan haqqında məlumatların xarici dillərdə geniş ictimaiyyətə çatdırılmasına ehtiyac var.

**- Zahid müəllim, son olaraq əlavə etmək istədiyiniz nəsə varmı?**

- Mən çox istərdim ki, "İqtisadiyyat" qəzetində hər dəfə Rusiyanın regionları ilə bağlı materiallar, Xəzəryanı ölkələrlə əlaqədar icmal xarakterli məlumatlar əks olunsun. Hesab edirəm ki, gələcəkdə "İqtisadiyyat" qəzetində Həştərxana həsr olunmuş xüsusi bir səhifə də ayıra bilərik.

**- Təşəkkürlər, Zahid müəllim.**

**Müsahibəni apardı:**
**Mətanət Hüseynova**

## Azərbaycan İqtisadçılar İttifaqı yeni layihənin icrasına başladı




Azərbaycan İqtisadçılar İttifaqı İB Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2019-cu ilin 1-ci qrant müsabiqəsində qalib gəlmiş və 20 may 2019-cu il tarixindən "Ali təhsil müəssisələrində beynəlxalq rəqabətliliyin artırılması mövzusunda ictimai müzakirəsinin təşkili" adlı layihənin icrasına başlamışdır. Layihənin icra planına uyğun olaraq birinci mərhələdə bu işlərin görülməsi nəzərdə tutulur:

1. Layihə çərçivəsində ilkin müzakirələrin təşkili üçün təhsil ekspertlərini dəvət etmək;
2. Ali təhsil müəssisələrində beynəlxalq rəqabətliliyin artırılması mövzusunda layihə ekspertləri ilə ilkin müzakirələrin aparılması;
3. Ali təhsildə rəqabətliliyin inkişafına dəstək verən təhsilə dair dövlət proqramlarının monitorinqinin aparılması.

Layihənin icrası 6 ay davam edəcəkdir.

## Şura "Fermerlərin ekoloji təmiz kənd təsərrüfatı istehsalı üzrə maarifləndirilməsi" layihəsini dəstəkləyir

"Gənclik və maarifçilik" İctimai Birliyinin "Fermerlərin ekoloji təmiz kənd təsərrüfatı istehsalı üzrə maarifləndirilməsi" layihəsi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2019-cu ilin 1-ci qrant müsabiqəsində "Ölkədə ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı və kənd təsərrüfatı məhsulları istehsalçılarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi ilə bağlı sahibkarlar arasında maarifləndirici tədbirlərin təşkili" müsabiqə mövzusu üzrə qalib gəlmiş və 1 may 2019-cu il tarixindən icra edilməyə başlanmışdır. Ötən dövr ərzində ekoloji təmiz kənd təsərrüfatı istehsalı, brend bitkilər, geni modifikasiya edilmiş bitkilər ilə bağlı ədəbiyyat məlumatları, hüquqi-normativ sənədlərin mənbələri, informasiya resursları müəyyənləşdirilmiş və imkan daxilində toplanmışdır. Onlar öyrənilmişdir və yeni sənədlər daxil olduqca öyrənilir, müvafiq sahə mütəxəssisləri ilə məsləhətləşmələr həyata keçirilir. AMEA-nın Lənkəran Elmi Mərkəzi və Şəki Elmi Mərkəzi, AMEA Genetik Ehtiyatlar İnstitutunun Quba Təcrübə Bazası, Kənd Təsərrüfatı Nazirliyinin regionlarda yerləşən tədqiqat müəssisələri və onların filialları ilə məsləhətləşmələr aparılır. Layihə çərçivəsində kitabça və bukletlərin nəşr edilməsi planlaşdırılır.




# Cocuq Mərcanlı qəsəbəsində xeyriyyə aksiyası keçirilib

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi tərəfindən "Uşaq ürəkləri Qarabağda döyünür!" şüarı altında Cocuq Mərcanlı qəsəbəsində xeyriyyə aksiyası və Horadiz şəhərində "Uşaq xəstəliklərinin diaqnostika və müalicəsində yeniliklər" mövzusunda Beynəlxalq Pediatrik Elmi konfrans keçirilib.

Tədbirdən öncə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı, t.e.d Rəşad Mahmudov, Türkiyənin Florence Nightingale Xəstəxanasının professorları – ürək-damar cərrahı Bülent Polat, pediatrik kardioloq Yalım Yalçın və Füzuli və Cəbrayıl rayonlarının icra hakimiyyətinin başçıları 2016-cı il aprel döyüşlərində həlak olan qəhrəman əsgər və zabitlərin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklillər qoyublar.



Cocuq Mərcanlı qəsəbəsinə ezam olunmuş Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin mobil səyyar hospitalında Mərkəzi Gömrük Hospitalın peşəkar həkimləri və Türkiyənin Florence Nightingale Xəstəxanasının professorları Qarabağ bölgəsində yaşayan uşaqların ən yüksək texnologiyalar əsasında diaqnostik tibbi müayinələrini həyata keçiriblər. EXO, USM, EKQ və digər tibbi avadanlıqlar vasitəsilə səhhətində problem aşkarlanan uşaqlara peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicə təyin olunub. Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəsmi nümayəndələri Cocuq Mərcanlıda yerləşən tibb məntəqəsini ziyarət ediblər və məntəqəyə kondisioner və bəzi tibbi ləvazimatlar hədiyyə ediblər.

1 İyun 2019-cu il tarixində qəsəbənin bütün uşaqları müayinə olunublar. Eyni zamanda, Füzuli rayonu Horadiz şəhərində "Uşaq xəstəliklərinin diaqnostika və müalicəsində yeniliklər" adlı Beynəlxalq Pediatrik Elmi konfrans keçirilib. Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəhbərlərinin, millət vəkillərinin, görkəmli elm xadimlərinin, Füzuli və Cəbrayıl icra hakimiyyətlərinin nümayəndələri və konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi və onun tərəfdaşları olan Türkiyənin Florence Nightingale Xəstəxanalar Qrupu və İstanbul Bilim Universitetinin birgə təşkilatçılığı ilə keçirilən konfransda uşaq xəstəliklərinin müalicəsində ölkəmizdə və dünyada qazanılmış son tibbi nailiyyətlər haqqında region həkimlərinə geniş məlumat verilib.

Konfransda Türkiyədən gələn professorlar Bülnet Polat və Yalım Yalçın, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı Rəşad Mahmudov, ADHTİ Şüa Diaqnostikası Kafedrasının fetal təbabət üzrə mütəxəssisi Azər Fərəc, Mərkəzi Gömrük Hospitalın uzman pediatrı Telman Aytayev və Mərkəzi Gömrük Hospitalın uzman uşaq cərrahı Vüsal Cəfərov məruzələrlə çıxış ediblər.

Konfransda uşaq xəstəliklərinin müalicəsində ölkəmizdə və dünyada qazanılmış son tibbi nailiyyətlər haqqında region həkimlərinə geniş məlumat verilib. Çıxışlarda uşaq ürək cərrahiyyəsinin bu günü və gələcəyi, anadangəlmə ürək qüsurları, fetal təbabət, prenatal diaqnostikada yeniliklər, uşaq cərrahiyyəsində təcili vəziyyətlər və s. bu kimi aktual məsələlərə toxunulmuş, müasir tibbin ən qabaqcıl yeniliklərinin tətbiqi müzakirə olunub.

# Mərkəzi Bank 100 milyon manat cəlb edir

İyunun 3-də Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən vəsaitlərin cəlb edilməsi üzrə depozit hərracı keçirilib. Hibrid hərracda 100 milyon manat məbləğində vəsait cəlb olunub.




Depozit hərracının müddəti 14 gündür. "Bloomberg" ticarət sistemində keçirilən hərrac üzrə faiz dərəcələri 6,76-8,74 faiz təşkil edir.




# Heydər Əliyevin xatirəsinə həsr olunan mini-futbol yarışı başa çatıb

"AtaBank" ASC-nin dəstəyi ilə ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə həsr olunan mini-futbol yarışı başa çatıb. "GNI","VTB"Bank Azərbaycan, "AtaHolding", "AFAM" və "Synergy" Şirkətlər Qrupunun təşkil olunan turnirdə çempion adı yenə dəyişməz qalıb.

Ənənəvi turnirin 8-ci ilində "No Name" zirvəni əldən verməyib. 32 gün davam edən yarışın ən titullu komandası bununla da 5-ci dəfə çempion tituluna yiyələnib. Onlar həlledici qarşılaşmada VTB-dən güclü olublar. Üçüncü yerin sahibinin adı isə dəyişib. "Cybernet"ə qalib gələn AFAM Group tarixinin ilk mükafatına - bürünc medala yiyələnib.




Belə ki, meydan əvvəlcə AFAM Group və "Cybernet"in ixtiyarına verilib. Tennis Akademiyasında baş tutan və AFFA-nın hakimlər briqadasının idarə etdiyi görüş həm maraqlı, həm də məhsuldar alınıb.

"Cybernet"in əzmkarlıq göstərməsinə baxmayaraq, AFAM Group 7:5 hesabı ilə qalib gəlib. "No Name" - "VTB"Bank Azərbaycan finalında isə gözlənilməz nəticə qeydə alınmayıb. "Adsız komanda" 4:0 hesablı qələbə qazanıb. Bu, həm də 3 il əvvəlki finalın qisası olub.

Beləliklə, uzun sürən marafon yenə də "No Name"in qələbəsi ilə başa çatıb. VTB-nin ikinci olduğu turnirdə "üçlüy"ü AFAM Group qapayıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Professor Elşən Hacızadə professor Şəmsəddin Hacıyevə əzizi
**BEHBUD MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## ETİBARSIZDIR

Məmmədova Lalə Yusifovnanın adına Bakı şəhəri, Xətai rayonu, A.Cəlilov küçəsi, ev 10, mənzil 28 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün **etibarsız** sayılsın.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500